YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
18 oktyabr 2025-ci il, şənbə
№ 189 (7016)
Qiymәti 60 qәpik



Milli azadlıqdan şirin nemət yoxdur!

# “Üç nöqtə” əməliyyatı uğurlu oldu... Zəngilan, Günün mübarək!

Bax səh. 3



İlham Əliyev
@azpresident

Azərbaycan Silahlı Qüvvələri qədim Xudafərin körpüsünün üzərində Azərbaycan bayrağını qaldırdılar. Eşq olsun Azərbaycan xalqına! Qarabağ Azərbaycandır!

Translate Tweet

4:45 PM · Oct 18, 2020 · Twitter for iPhone

İlham Əliyev
@azpresident

Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri azad edilmişdir. Qarabağ Azərbaycandır!

Translate Tweet

8:10 AM · Oct 19, 2020 · Twitter Web App

İlham Əliyev
@azpresident

Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı, Cəbrayıl rayonunun Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli,

Translate Tweet

4:01 PM · Oct 20, 2020 · Twitter Web App

İlham Əliyev
@azpresident

Replying to @azpresident

Xocavənd rayonunun Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli, Çinarlı, Zəngilan rayonunun Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhəri işğaldan azad edilib. Eşq olsun Azərbaycan xalqına! Qarabağ Azərbaycandır!

Translate Tweet

4:01 PM · Oct 20, 2020 · Twitter Web App

# Bir günə sığan iki tarix!



Bax səh. 2

## Azərbaycan - Vatikan: Əməkdaşlığın yeni səhifəsi

Bax səh. 3

## Milli Məclis Prezident və Birinci xanıma təbrik məktubu ünvanlayıb

Bax səh. 2

# “Milli müxtəlifliklərdən qlobal həmrəyliyə: yeni dünya nizamında mədəniyyətin rolu”




Bax səh. 4-5

# Bir günə sığan iki tarix!

Azərbaycan dövləti və xalqı üçün 18 oktyabr müstəsna önəm daşıyan bir gündür. Bu da milli maraqlarımız baxımından çox mühüm olan iki hadisənin məhz oktyabrın 18-də baş verməsi ilə bağlıdır. Ali Sovet 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktını qəbul edib. Bu tarixi qərarla Azərbaycan XX yüzillikdə ikinci dəfə müstəqilliyinə qovuşub.

Digər əlamətdar hadisə isə İkinci Qarabağ müharibəsinə aiddir. 18 oktyabr 2020-ci ildə Müzəffər Ordumuz Xudafərin körpüsünü işğaldan azad edib. Xudafərin bizim üçün adi bir körpü deyil. Arazın o tayı ilə bu tayını birləşdirən bu körpü xalqımız üçün böyük rəmzi məna daşıyır. Otuz illik işğal illərində bizim Xudafərinə çıxış imkanımız olmayıb və o, hər birimiz üçün həsrət körpüsünə çevrilib. Xudafərində qazanılan qələbə niskilimizə son qoydu və Azərbaycan Ordusunun özünəinamını daha da artırdı, düşmənin həm hərbi, həm də psixoloji məğlubiyyətinə yol açan vacib amillərdən oldu. Beləliklə, 18 oktyabr barəsində obrazlı şəkildə belə deyə bilərik: Bir günə sığan iki tarix!



## XX yüzillikdə ikinci dəfə müstəqilliyin əldə olunması - Heydər Əliyevin liderlik rolu

Son 200 ildə Azərbaycan bir sıra istilalara məruz qalıb, tarixi torpaqlarımız işğal altına düşüb, sərhədlərimiz kiçilib. Ancaq Azərbaycan xalqı üzləşdiyi məhrumiyyətlərə, sərt ideoloji qadağalara baxmayaraq, heç vaxt qəlbindən azadlıq ideallarını çıxarmayıb, həmişə bu müqəddəs arzu ilə yaşayıb. Həmin arzular 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaradılması ilə çin oldu. AXC müsəlman Şərqində demokratik əsaslarla qurulan ilk respublika idi ki, bu da Azərbaycan xalqının böyüklüyünü, öz taleyinin sahibi olmaq istəyini, qəhrəmanlığını və müasirliyini təcəssüm etdirirdi. Əslində, AXC-nin bəyan edilməsi 1828-ci ildə baş tutan işğaldan sonra xalqımızın itirilmiş dövlətçiliyinin bərpası idi. AXC dövlət quruculuğunda, idarəetmədə, demokratiyanın bərqərar olmasında, təhsil sahəsində, yeni seçki ənənələrinin formalaşmasında, qadınların seçmək və seçilmək hüquqlarının tanınmasında və digər istiqamətlərdə hətta Avropa üçün örnək sayıla biləcək bir sıra ilklərə imza atıb. Beynəlxalq səviyyədə tanınıb. Ancaq AXC-nin ömrü uzun olmayıb - cəmi 23 ay yaşayıb və 1920-ci il aprelin 28-də süqut edib. Sonrakı mərhələdə respublikamız təxminən 70 il keçmiş SSRİ-nin tərkibində qalsa da, xalqımız müstəqillik ideyalarını həmişə qəlbində yaşadıb və müstəqil dövlətini qurmağa can atıb. Belə tarixi fürsət isə ötən əsrin doxsanıncı illərinin əvvəlində yaranıb.

Tarix sübut edir ki, hər fürsəti vaxtında və düzgün dəyərləndirmək lazımdır. Əks halda, bundan başqaları yararlana bilərlər. Ötən əsrin doxsanıncı illərinin əvvəllərində keçmiş ittifaqın süqutu fonunda yaranan müstəqilliyimizin bərpası fürsəti də itirilə bilərdi. Çünki həmin dönəmdə respublikamızda çox ziddiyyətli proseslər izlənilirdi və müxtəlif güclər öz maraqlarını təmin etməyə çalışırdılar. Belə bir çətin vəziyyətdə XX yüzillikdə ikinci dəfə müstəqilliyə gedən yolda xalqımızın müdrik oğlu, böyük siyasətçi Heydər Əliyevin liderliyi müstəsna rol oynadı. O dövrdə - hələ keçmiş ittifaqın süqutundan əvvəl 17 noyabr 1990-cı il tarixində Heydər Əliyevin sədrliyi ilə çağırılan sessiyada Onun təşəbbüsü ilə Naxçıvan Ali Sovetinin adı dəyişdirilərək Naxçıvan Respublikasının Ali Məclisi adlandırılması haqqında qərar çıxarıldı. Eyni zamanda, Azərbaycan Xalq Cümhuriyyətinin o vaxtlar çoxlarının tanımadığı üçrəngli bayrağı Naxçıvan Ali Məclisində qaldırıldı. Bir qədər sonra-1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə baxaraq üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar verdi, həmçinin ölkənin adı dəyişdirilərək "Azərbaycan Respublikası" adlandırıldı. Heydər Əliyevin təşəbbüsü ilə 1991-ci il avqustun 26-dan Naxçıvan Muxtar Respublikası ərazisində Azərbaycan Kommunist Partiyasının fəaliyyəti dayandırıldı, onun bütün strukturları ləğv edildi. 1991-ci il avqustun 30-da respublika Ali Sovetinin xalqın tələbi ilə çağırılmış növbədənkənar sessiyasında Heydər Əliyev Azərbaycanın müstəqilliyinin elan olunması təklifi ilə çıxış etdi. Bunun nəticəsində həmin sessiyada "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Bəyannamə qəbul edildi. 10 müddəadan ibarət olan sənəddə 1918-ci ildən 1920-ci ilədək Azərbaycan Respublikasının beynəlxalq birlik tərəfindən tanınmış müstəqil dövlət kimi mövcud olduğu xüsusi vurğulanıb. Həmin bəyannamə sonrakı mərhələdə respublikamızın müstəqilliyi ilə bağlı digər hüquqi sənədlərin hazırlanması və qəbul edilməsi üçün əsas oldu. 1991-ci il oktyabrın 18-də Ali Sovet məhz bu bəyannaməyə istinad edilməklə "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nı qəbul etdi. Sənəddə Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi təsbit edilib.

Azərbaycan parlamentinin 15 oktyabr 2021-ci il tarixli plenar iclasında "Müstəqillik Günü haqqında" yeni qanun qəbul edilib. Elə həmin gün də Prezident İlham Əliyev tərəfindən "Müstəqillik Günü haqqında" qanun təsdiqlənib.

Qanunun təsdiqlənməsi ilə 28 May - Respublika Gününün və 18 Oktyabr - Dövlət Müstəqilliyi Gününün adı dəyişdirilib. Belə ki, mayın 28-i Müstəqillik Günü, oktyabrın 18-i isə Müstəqilliyin Bərpası Günü elan edilib.

Müstəqil Azərbaycan tarixi uğurlara imza atıb, beynəlxalq birliyin sayılıb-seçilən üzvlərindən birinə çevrilib. Ən böyük uğurumuz isə Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm qələbələrimiz sayəsində ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam təmin olunmasıdır. Biz qürur duyuruq ki, bu gün müstəqil Azərbaycanın bütün ərazisində üçrəngli bayrağımız əzəmətlə dalğalanır.

## Vətən müharibəsinin 22-ci günündə



Vətən müharibəsinin hər günündə xalqımız cəbhədən gələn qələbə müjdələrinə sevinirdi. Bu müjdələri isə bir qayda olaraq Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev paylaşdığı tvitlərlə çatdırırdı. Dövlətimizin başçısının növbəti qələbə müjdəsi isə Vətən müharibəsinin 22-ci günündə Xudafərin körpüsünün işğaldan azad edilməsi ilə bağlı oldu. Prezident İlham Əliyevin tviter səhifəsində paylaşdığı "Azərbaycan Silahlı Qüvvələri qədim Xudafərin körpüsünün üzərində Azərbaycan bayrağını qaldırdılar. Eşq olsun Azərbaycan xalqına! Qarabağ Azərbaycandır!" tviti ölkəmizdə xüsusi coşqu ilə qarşılandı.

Qeyd edək ki, Ermənistanın ötən əsrin doxsanıncı illərinin əvvəllərində havadarlarının dəstəyi ilə həyata keçirdiyi işğal nəticəsində ölkəmizin İranla olan 132 kilometr uzunluğunda dövlət sərhədi bütünlüklə düşmənin nəzarətinə keçmişdi. 18 oktyabr 2020-ci il tarixində Xudafərin körpüsü ilə yanaşı, Cəbrayıl rayonunun daha iki yaşayış məntəqəsi - Hacılı və Hacı İsaqlı kəndləri, həmçinin bir sıra yüksəkliklər də işğalçılardan azad edilib. Bununla da İranla dövlət sərhədimizin xeyli hissəsi bərpa olunub. Hərbiçilərimiz Xudafərinin azad edilməsi planını çox məharətlə hazırlayıblar və uğurla həyata keçiriblər. Əvvəlcə erməni hərbi birləşmələri ətrafdakı yüksəkliklərdən çıxarılıb. Bundan sonra hərbiçilərimiz komandanlığın tapşırıqlarına uyğun olaraq körpüyə müxtəlif istiqamətlərdən yaxınlaşıblar. Xudafərinin azad edilməsi zamanı hərbiçilərimiz arasında itkilər olmayıb.

Xudafərin körpüləri Azərbaycan memarlığının nadir nümunələrindəndir. Araz çayı üzərində salınan iki Xudafərin körpüsü bu gün də öz əzəmətini saxlamaqdadır. Onlardan "Baş Xudafərin körpüsü" adlanan 11 aşırımlı körpünün uzunluğu 130, eni 6, hündürlüyü isə 12 metrdir. İkinci körpü isə 15 aşırımlı olmaqla uzunluğu 200, eni 4,5 metr, hündürlüyü 10 metrdir.

Xudafərinin işğaldan azad olunması böyük Qələbəmizin əsas memarı olan Prezident, Ali Baş Komandan İlham Əliyevin də həyatında xüsusi bir gün olub. Bunu Onun özü səmimi şəkildə etiraf edib. Müharibə başa çatandan az sonra - 2020-ci il noyabrın 16-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən də Xudafərin körpüsündə olublar. Bu anlar da tariximizin səhifələrinə qızıl hərflərlə yazılıb. Prezident İlham Əliyev Xudafərin körpüsündə şanlı Azərbaycan Bayrağını qaldırıb. Dövlətimizin başçısının bayrağımızı tarixi Xudafərin körpüsündə qaldırması Azərbaycan xalqı üçün sonsuz qürur və fəxarətdir.

***Mübariz FEYİZLİ***

# Milli Məclis Prezident və Birinci xanıma təbrik məktubu ünvanlayıb



Oktyabrın 17-də Milli Məclisin növbəti iclası keçirilib. İclasın gündəliyinə 7 məsələ daxil edilib. Əvvəlcə spiker Sahibə Qafarova çıxış edərək bildirib ki, iclas tarixi bir günün ildönümü ərəfəsində keçirilir. Onun sözlərinə görə, 34 il öncə, 1991-ci il oktyabrın 18-də Azərbaycan Ali Soveti dövlət müstəqilliyimizin bərpasını elan edib: "Bir əsr ərzində ikinci dəfə xalqımız müstəqil dövlətini qurmaq imkanına nail olub. Amma müstəqilliyi əldə etmək az idi, onu qoruyub saxlamaq da lazım idi. Təəssüf ki, yeni yaranmış dövlətin idarə edilməsində, daxili və xarici siyasətin həyata keçirilməsində kobud səhvlərə yol verilmişdi. Ermənistanın silahlı təcavüzü, torpaqlarımızın işğalı, yüz minlərcə soydaşımızın yurdlarını tərk etməsi ciddi problemlər yaratmışdı. İqtisadiyyat dağılır, anarxiya və özbaşınalıq genişlənirdi. Biz hamımız bu hadisələrin şahidi olmuşuq. Daxili mübarizəyə başı qarışan səriştəsiz iqtidar dövlətçiliyimizi müdafiə etməyə qadir deyildi. Ölkəmiz vətəndaş müharibəsinin astanasında idi. Dövlət müstəqilliyinin itirilməsi təhlükəsi real şəkil almışdı.

Məhz bu ağır vəziyyətdə xalqımız yenidən öz müdrik liderinə üz tutdu". Parlament sədri deyib ki, 1993-cü ilin iyun ayında dünya miqyaslı siyasi və dövlət xadimi Heydər Əliyevin hakimiyyətə qayıtması tariximizin dönüş nöqtəsi oldu. Heydər Əliyev təkcə ölkəni fəlakətdən xilas etmədi, həm də onu yenidən qurdu. Ümummilli Liderimizin həyata keçirdiyi milli qurtuluş missiyası nəticəsində Azərbaycan böyük təhlükələri aradan qaldırdı və davamlı inkişaf yoluna qədəm qoydu. Müasir dövlətçiliyin, iqtisadiyyatın, hüquq sisteminin, ordunun möhkəm təməlləri yaradıldı.

S.Qafarova qeyd edib ki, məhz Heydər Əliyevin fəaliyyəti sayəsində müstəqillik ideyası real məzmun kəsb etdi və dayanıqlı dövlətçilik sisteminə çevrildi. Milli suverenliyin möhkəm siyasi-hüquqi əsasları formalaşdırıldı. Ulu Öndər sübut etdi ki, güclü dövlət, səmərəli qanunlar və vətəndaş məsuliyyəti olmadan həqiqi müstəqillik mümkün deyil. Bu baxımdan 2025-ci ilin Konstitusiya və Suverenlik ili elan olunması da Heydər Əliyev ideyalarının və əməllərinin təntənəsini ifadə edir.

Diqqətə çatdırılıb ki, heydər Əliyevin strateji xəttini layiqincə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi müasir dünya dövləti olan Azərbaycanın qurulmasını təmin edib. Ötən 22 il ərzində ölkəmiz sabitlik və inkişaf məkanına çevrilib. İndi Azərbaycan amili regional təhlükəsizliyin və iqtisadi əməkdaşlığın mühüm şərtidir. "Biz 44 günlük Vətən müharibəsində və antiterror əməliyyatında tarixi qələbələr qazanmışıq. Ərazi bütövlüyümüzü və dövlət suverenliyimizi bərqərar etmişik",-deyən spiker əlavə edib ki, bu gün Azərbaycan beynəlxalq platformalarda səsi eşidilən, öz sözünü inamla söyləyən bir dövlətdir. Təkcə son yarım ay ərzində baş vermiş beynəlxalq hadisələrdə bir daha nümayiş etdirdi ki, Azərbaycanın qlobal siyasi dialoq sistemində sanballı yeri var. Prezident İlham Əliyevin Avropa Siyasi Birliyinin 7-ci Zirvə toplantısında, Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə görüşündə, MDB Dövlət Başçıları Şurasının Zirvə görüşündə və Yaxın Şərq Sülh Sammitində iştirakı, həmin tədbirlər çərçivəsində keçirdiyi görüşlər və apardığı danışıqlar göstərdi ki, Azərbaycan təkcə regional lider deyil, həm də beynəlxalq proseslərin nüfuzlu iştirakçısıdır.

"Təklif edirəm ki, Müstəqilliyin Bərpası Günü münasibəti ilə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlayaq. Azərbaycan xalqının və dövlətinin bu günü və sabahı naminə dəyərli fəaliyyətlərinə görə onlara yeni uğurlar arzulayaq",-deyə S.Qafarova qeyd edib.

Daha sonra spiker parlament nümayəndə heyətinin 13-14 oktyabr tarixlərində Pakistan İslam Respublikasına işgüzar səfəri barədə məlumat verib.

Sonra iclasın gündəliyindəki məsələlər müzakirə olunub. Əvvəlcə "Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi" təsdiq edilib. Bildirilib ki, Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında iqtisadi və ticarət əlaqələrinin inkişaf etdirilməsi məqsədilə bağlanmış Saziş 9 iyul 2025-ci il tarixində Əbu-Dabi şəhərində imzalanıb. Sazişin əsas məqsədi iki ölkə arasında ticarət və investisiya münasibətlərini genişləndirmək, ticarət maneələrini azaltmaq, qarşılıqlı iqtisadi əməkdaşlığı gücləndirmək və uzunmüddətli, sabit hüquqi çərçivə yaratmaqdır.

Saziş ümumilikdə 18 fəsildən və bir sıra əlavələrdən ibarətdir. Onun strukturu və məzmunu müasir azad ticarət və hərtərəfli iqtisadi tərəfdaşlıq anlaşmalarına uyğun hazırlanıb. Sazişdə malların və xidmətlərin ticarəti, investisiyalar, gömrük prosedurlarının sadələşdirilməsi, dövlət satınalmaları, rəqəmsal ticarət, əqli mülkiyyət hüquqları, kiçik və orta sahibkarlığın dəstəklənməsi, mübahisələrin həlli mexanizmləri və yekun müddəalarla bağlı əhatəli razılaşmalar öz əksini tapıb.

Sonra "Dəniz Naviqasiya Avadanlıqları üzrə Beynəlxalq Təşkilat haqqında Konvensiya"ya qoşulmaq barədə qanun layihəsi təsdiqlənib. Qeyd edilib ki, "Dəniz Naviqasiya Avadanlıqları üzrə Beynəlxalq Təşkilat haqqında Konvensiya" 27 yanvar 2021-ci il tarixində Paris şəhərində imzalanıb.

Sənəd preambula, 22 maddə və keçid müddəalardan ibarətdir. Konvensiyada Dəniz Naviqasiya Avadanlıqları üzrə Beynəlxalq Təşkilatın təsis edilməsi, məqsəd və hədəfləri, funksiyaları, orqanları və s. barədə ətraflı məlumat verilib. Bu qurum hökumətlərarası təşkilat kimi təsis edilib, məsləhətçi və texniki xarakter daşımaqdadır.

Deputatlar "Dövlət qulluğu haqqında" Qanunda dəyişiklik edilməsi məsələsini də müzakirə ediblər. Mövcud qanunvericiliyə əsasən, 1-3-cü kateqoriya dövlət orqanlarında (müvafiq icra hakimiyyəti orqanı, habelə Azərbaycan Respublikasının xarici ölkələrdə ticarət nümayəndələri istisna olmaqla) inzibati vəzifələrin birinci üçüncü təsnifatlarına uyğun olan vəzifələrə qəbul daxili müsahibə əsasında həyata keçirilir.

Təklif olunan dəyişikliyə əsasən, 1-3-cü kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin birinci üçüncü təsnifatlarına uyğun olan vəzifələrə (yerli icra hakimiyyəti orqanlarının rəhbərlərinin müavinləri və Azərbaycan Respublikasının xarici ölkələrdə ticarət nümayəndələri istisna olmaqla) qəbul daxili müsahibə əsasında həyata keçirilə bilər. Qanun layihəsi səsverməyə qoyularaq birinci oxunuşda qəbul olunub.

Qeyd edək ki, iclasın gündəliyində olan digər qanun layihələri də qəbul olunub. İclasın sonunda spiker Sahibə Qafarova parlamentin növbəti iclasının oktyabrın 24-də keçiriləcəyini bildirib.

***Nardar BAYRAMLI***

# Birinci vitse-prezident Mehriban Əliyeva Roma Papası XIV Leo ilə görüşüb

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Müqəddəs Taxt-Taca - Vatikana rəsmi səfəri çərçivəsində oktyabrın 17-də Roma Papası XIV Leo ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Roma Papası XIV Leo tərəfindən qəbul olunduğuna görə təşəkkürünü bildirən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Vatikan ilə Azərbaycan arasında son illərdə münasibətlərin, ikitərəfli əlaqələrin xeyli dərəcədə inkişaf etdiyini vurğulayıb. Birinci vitse-prezident son illər ərzində Heydər Əliyev Fondunun bərpa işlərində, həmçinin elmi araşdırmalarda, mədəni mübadilələrdə Müqəddəs Taxt-Tacla bir çox işlər gördüyünü diqqətə çatdırıb.

Birinci vitse-prezident Heydər Əliyev Fondu ilə Vatikan arasında imzalanmış sazişlərə əsasən bəzi layihələrin uğurla başa çatmasından sonra digərlərinin icrasına başlanıldığını vurğulayıb.

Mehriban Əliyeva bundan sonra da Heydər Əliyev Fondunun yeni təşəbbüslərlə çıxış edərək Müqəddəs Taxt-Tacla əməkdaşlığını genişləndirəcəyini deyib.

Görüşdə Müqəddəs Taxt-Tacın Azərbaycandakı Katolik Kilsəsinin fəaliyyəti, eyni zamanda, ikinci Katolik Kilsənin tikintisi ilə əlaqədar aparılan hazırlıq işləri barədə məlumat verilib.

Roma Papası XIV Leo Vatikan dövləti ilə Azərbaycan Respublikası arasında ikitərəfli əməkdaşlığın uzun tarixə malik olduğunu diqqətə çatdırıb. Roma Papası bir neçə il əvvəl Mehriban xanımın irəli sürdüyü təşəbbüslər sayəsində münasibətlərin xeyli inkişaf etdiyini deyərək, Birinci vitse-prezidentə təşəkkürünü bildirib. XIV Leo bu əməkdaşlığın dinlərarası və sivilizasiyalararası dialoqa çox böyük təkan verdiyini, Azərbaycanın da bu baxımdan dünya miqyasında ilk sıralarda yer aldığını qeyd edib.

Müqəddəs Taxt-Tacın rəhbəri Vatikanın Azərbaycanla bu layihələri davam etdirməkdə maraqlı olduğunu deyərək, ikinci Katolik Kilsənin tikintisinə ayrılmış torpaq sahəsinə görə təşəkkürlərini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə çatdırmağı xahiş edib. Roma Papası Heydər Əliyev Fonduna görülən işlərə görə minnətdarlığını ifadə edib.

Birinci vitse-prezident Mehriban Əliyeva Müqəddəs Taxt-Tacın rəhbərinə minnətdarlığını bildirərək, Roma Papasını Azərbaycana səfərə dəvət edib.



**14 ildə 6-cı səfər**

# Azərbaycan - Vatikan: Əməkdaşlığın yeni səhifəsi

## Birinci vitse-prezident Mehriban Əliyeva: Əminəm ki, bugünkü mürəkkəb dünyada dövlətlərimiz arasında genişlənən əməkdaşlıq, dostluq əlaqələri bir nümunədir

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın oktyabrın 16-da Müqəddəs Taxt-Taca - Vatikana rəsmi səfərinin gündəliyi kifayət qədər geniş olub. Birinci vitse-prezident Vatikan rəsmiləri ilə mühüm görüşlərə qatılıb və Heydər Əliyev Fondunun Müqəddəs Taxt-Tacda həyata keçirdiyi ayrı-ayrı layihələrin icrası ilə tanış olub.

**Vatikanda Müqəddəs Kommodilla katakombalarının bərpası layihəsinin açılışı**

Cənubi Qafqazın ən böyük ictimai təşkilatı olan Heydər Əliyev Fondunun Vatikanda reallaşdırdığı layihələrdən biri Müqəddəs Kommodilla katakombalarının bərpasını əhatə edir. Oktyabrın 16-da səfər çərçivəsində Birinci vitse-prezident və ailə üzvləri Heydər Əliyev Fondunun dəstəyi ilə Müqəddəs Kommodilla katakombalarının bərpası layihəsinin açılış mərasimində iştirak edib və həyata keçirilmiş bərpa işləri ilə tanış olublar.

Vatikanın Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyasının prezidenti Monsenyor Paskuale Yakobone Birinci vitse-prezident Mehriban Əliyevanın uzun illərdir başçılıq etdiyi komissiya ilə çox yaxından və səmərəli əməkdaşlıq etdiyini bildirib. Paskuale Yakobone Kommodilla katakombalarının açılışında iştirakına görə Birinci vitse-prezident Mehriban Əliyevaya dərin təşəkkürünü ifadə edib.

Bu layihə həyata keçirilməzdən əvvəl Azərbaycan tərəfi ilə iki digər mühüm layihənin icra olunduğunu vurğulayan Komissiyanın prezidenti Müqəddəs Marçelino və Pietro, həmçinin Müqəddəs Sebastian katakombalarının bərpasına Heydər Əliyev Fondunun səyləri nəticəsində nail olduqlarını vurğulayıb.

Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyasının sabiq prezidenti, kardinal Canfranko Ravazi ölkəmizə səmimi və dərin dostluq telləri ilə bağlı olduğunu vurğulayaraq, Azərbaycana üç dəfə səfər etdiyini diqqətə çatdırıb, səfərlər çərçivəsində Prezident İlham Əliyev tərəfindən qəbul olunduğunu və məhz onun qərarı ilə Azərbaycan dövlətinin ən yüksək mükafatlarından birinə - "Dostluq" ordeninə layiq görüldüyünü qeyd edib. Canfranko Ravazi Birinci vitse-prezident Mehriban Əliyeva ilə səmimi dostluq və qarşılıqlı hörmət münasibətlərindən söz açıb.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Müqəddəs Taxt-Taca növbəti səfərindən böyük şərəf hissi duyduğunu bildirib. Heydər Əliyev Fondunun prezidenti bunun son 14 ildə Vatikana altıncı səfəri olduğunu diqqətə çatdırıb. "Mən çox şadam ki, biz bu illər ərzində çox gözəl əməkdaşlıq yaratmışıq. Buraya hər gəlişimizdə bizim dostlarımızın sayı artır", - deyə Birinci vitse-prezident qeyd edib.

Azərbaycanın əsrlər boyu müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələrinin birgə sülh, qarşılıqlı hörmət, tolerantlıq və harmoniya şəraitində yaşayan bir məkan olduğunu vurğulayan Mehriban Əliyeva deyib: "Bu gün bu prinsiplər həm bizim dövlət siyasətimizin əsasıdır, həm də həyat tərzimizdir. Əminəm ki, bugünkü mürəkkəb dünyada dövlətlərimiz arasında genişlənən əməkdaşlıq, dostluq əlaqələri bir nümunədir".

Birinci vitse-prezident həm Vatikanda, həm də Azərbaycanda bu layihələrdə əməyi olan şəxslərə dərin minnətdarlığını ifadə edərək bildirib: "Heydər Əliyev Fondu olaraq gələcəkdə əməkdaşlığımızı davam etdirməyə maraqlıyıq və hazırıq. İnanıram ki, bu fəaliyyət davamlı olacaq. Sonda katolik dünyası üçün böyük mənəvi dəyərlər daşıyan "Yubiley İli" münasibətilə hər birinizi təbrik edirəm. Fürsətdən istifadə edərək, sizi Azərbaycana səfərə dəvət edirəm".

Roma şəhərinin VIII bələdiyyəsinin prezidenti Amedeo Çakkeri Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi altında çalışan insanlara burada görülmüş işlərə görə təşəkkürünü bildirib. Bu layihə üzərində bir neçə il çalışdığını deyən bələdiyyə prezidenti Azərbaycan səfirliyi ilə sıx əməkdaşlıq etdiklərini diqqətə çatdırıb.









Sonra Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Müqəddəs Kommodilla katakombalarının açılışı olub.

Qeyd edilib ki, Heydər Əliyev Fondunun və Azərbaycandakı dini icmaların təmsilçilərinin Vatikana səfəri zamanı 2021-ci il martın 4-də Fond və Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyası arasında Kommodilla katakombalarının bərpası ilə bağlı müqavilə imzalanıb. Fondun göstərdiyi dəstək katakombanın böyük arxeoloji dəyərə malik olan hissəsini uçmaq təhlükəsindən qoruyub.

**Müqəddəs Pavel Bazilikasında həyata keçirilən bərpa işləri**

Səfər çərçivəsində Birinci vitse-prezident Mehriban Əliyeva Vatikanda Müqəddəs Pavel Bazilikasının baş keşişi, kardinal Ceyms Harvinin müşayiəti ilə bazilikada Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilən bərpa və tikinti işləri ilə tanış olub.

Keşiş Don Lodoviko Turrisi və arxitektor Marko Çiriaki Birinci vitse-prezident Mehriban Əliyevaya kilsə və burada görülən işlər barədə məlumat veriblər.

Diqqətə çatdırılıb ki, Müqəddəs Pavel Bazilikası Müqəddəs Pyotr Bazilikasından sonra Vatikanın ikinci ən böyük kilsəsidir və 1980-ci ildə UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib.

Xatırladaq ki, 2024-cü il sentyabrın 11-də 25 ildən bir təşkil olunan və Müqəddəs Taxt-Tac tərəfindən qeyd edilən "Yubiley İli" çərçivəsində Vatikan Şəhər Dövlətinin Qubernatorluğu ilə Heydər Əliyev Fondu arasında Müqəddəs Pavel Bazilikasının mərmər örtüklərinin və dekorativ elementlərinin təhlükəsizliyinin təmin olunmasını və təmirini nəzərdə tutan sənəd imzalanıb. Sənədi Qubernatorluğun sabiq prezidenti kardinal Fernando Vergez Alzaqa və Azərbaycan Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov imzalayıblar.

**Möhkəm təməl, qarşılıqlı hörmət və dostluq əsasında inkişaf edən dövlətlərarası əlaqələr**

Birinci vitse-prezident Mehriban Əliyeva Müqəddəs Taxt-Taca - Vatikana rəsmi səfəri çərçivəsində Müqəddəs Pavel Bazilikasının baş keşişi kardinal Ceyms Harvi ilə görüşüb. Mehriban Əliyeva ötən illər ərzində dövlətlərarası əlaqələrin çox möhkəm təməl, qarşılıqlı hörmət və dostluq əsasında inkişaf etdiyini bildirib. Birinci vitse-prezident bu illər ərzində bir sıra mühüm layihələrin bərpasında Heydər Əliyev Fondunun dəstəyini diqqətə çatdıraraq, gələcəkdə də bu fəaliyyəti davam etdirəcəklərini vurğulayıb.

Müqəddəs Kommodilla katakombalarının açılışında birgə iştirak etdiklərini deyən Mehriban Əliyeva bunun Heydər
Əliyev Fondunun böyük layihələrindən biri olduğunu diqqətə çatdıraraq deyib: "Roma elə şəhərdir ki, həm yerin altı, həm də üstü demək olar səma altında açıq muzeydir. Bizim fəaliyyətimiz elə qurulub ki, bəzi layihələr sona çatan kimi yeni layihələrə start veririk. Bu, çox davamlı əməkdaşlıqdır və mən onu yüksək dəyərləndirirəm".

Baş keşiş, kardinal Ceyms Harvi bu cür mühüm layihələri həyata keçirdiklərinə və görülmüş işlərə görə Müqəddəs Taxt-Tac adından Azərbaycan dövlətinə və Heydər Əliyev Fonduna təşəkkürünü bildirib.

Heydər Əliyev Fondunun Müqəddəs Pavel Bazilikasının örtüklərinin bərpasında iştirak etdiyini vurğulayan baş keşiş bu işin başa çatdırılmasında xeyli zəhmət çəkildiyini söyləyib. O, Romaya gələn zəvvarların sayını nəzərə alaraq, həmin bazilikada təhlükəsizliyin təmin edilməsi üçün Azərbaycanın dəstəyi ilə görülmüş işlərin müstəsna əhəmiyyətə malik olduğunu bildirib.

**Avropanın ən böyük pediatrik "Bambino Gesu" xəstəxanası ilə əməkdaşlıq**

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva səfər çərçivəsində Avropanın ən böyük pediatrik "Bambino Gesu" xəstəxanasında olub. Birinci vitse-prezident burada molekulyar-genetika və klinik diaqnostika laboratoriyaları ilə tanış olub.

"Bambino Gesu" pediatrik xəstəxanasının prezidenti Titsiano Onesti Birinci vitse-prezident Mehriban Əliyevaya laboratoriyalar haqqında məlumat verib.

Bildirilib ki, 1869-cu ildə Salviati ailəsi tərəfindən əsası qoyulmuş, Roma şəhərində yerləşən, Müqəddəs Taxt-Tacın ekstraterritorial ərazisi hesab olunan "Bambino Gesu" pediatrik xəstəxanası ilkin olaraq özəl xəstəxana kimi yaradılıb. Bu tibb müəssisəsi uşaq müalicəsi üçün nəzərdə tutulmuş ilk strukturlar arasındadır. 2006-cı ildə xəstəxana "Joint Commission International" tərəfindən akademik xəstəxana kimi akkreditə olunub və hazırda Avropanın ən böyük uşaq xəstəxanası və tədqiqat mərkəzidir.

Bu il sentyabrın 10-da Heydər Əliyev Fondu, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Müqəddəs Taxt-Tacın "Bambino Gesu" pediatrik xəstəxanası arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.

"Bambino Gesu" xəstəxanası ilə qurulan əməkdaşlıq nadir xəstəliklər, molekulyar genetika, klinik diaqnostika və digər müvafiq sahələrin Azərbaycanda inkişafına mühüm töhfə verəcək. Bu tərəfdaşlıq azərbaycanlı alim və tədqiqatçılara qabaqcıl elmi yanaşmalara yiyələnmək və müasir texnologiyalarla təchiz olunmuş laboratoriyalarda araşdırmalar aparmaq imkanı yaradacaq.

*Mübariz ABDULLAYEV*

# "Üç nöqtə" əməliyyatı uğurlu oldu...

## Zəngilan, Günün mübarək!



Vətən müharibəsinin 24-cü günü - 2020-ci il oktyabrın 20-si tariximizə Zəngilan şəhərinin və ətraf kəndlərin erməni işğalından azad edildiyi gün kimi həkk olunub.

Xatırladaq ki, 1993-cü il oktyabrın 29-da Ermənistan tərəfindən işğal olunan Zəngilan rayonu tamamilə dağıdılıb, zəngin təbii ehtiyatları talanaraq xarici ölkələrə daşınıb. 2020-ci ilin payızında Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz uğurlu hərbi əməliyyatlar nəticəsində rayonu işğalçı erməni hərbi birləşmələrindən təmizləməyə nail olub. 44 günlük Zəfər yürüşündə hər gün gələn qələbə xəbərləri sırasında növbə Zəngilan rayonuna da çatdı. Oktyabrın 20-də Prezident
İlham Əliyev bu xoş xəbəri xalqa çatdırdı: "Zəngilan rayonu. Şanlı Azərbaycan Ordusu Zəngilan rayonu ərazisinə də daxil olub və yaşayış məntəqələrinin azad olunması təmin edilib. Zəngilan rayonu ərazisində yerləşən yaşayış məntəqələrinin adlarını çəkirəm: Havalı kəndi, Zərnəli kəndi, Məmmədbəyli kəndi, Həkəri kəndi, Şərifan kəndi, Muğanlı kəndi və Zəngilan şəhəri! Zəngilan bizimdir! Qarabağ bizimdir!

Əziz xalqım, əziz zəngilanlılar, füzulililər, xocavəndlilər, cəbrayıllılar və işğal edilmiş digər rayonların sakinləri, biz öz missiyamızı yerinə yetiririk. Düşmənə layiqli cavab veririk. Düşməni cəzalandırırıq. Düşmən bizim qarşımızda acizdir. Düşmənin belini qırırıq, qıracağıq! Qarabağ bizimdir! Yaşasın Azərbaycan! Eşq olsun Azərbaycan xalqına!".

**Zəngilanın azad edilməsinin strateji önəmi...**

2020-ci il dekabrın 23-də Prezident



İlham Əliyev Zəngilanda Azərbaycan Bayrağını ucaldıb. 2023-cü il iyulun 31-də isə dövlət başçısının imzaladığı Sərəncama əsasən şəhərin işğaldan azad edildiyi 20 oktyabr tarixi Zəngilan Şəhəri Günü kimi qeyd olunur.

Azərbaycan Ordusunun qəhrəmanlığı nəticəsində Zəngilan işğaldan azad edildikdən sonra Zəngəzur bölgəsinə nəzarət imkanları yaranıb. Həmçinin, Ağbənd qəsəbəsi və Vejnəli yüksəkliyinin düşməndən təmizlənməsi ilə Azərbaycan-İran dövlət sərhədinin 132 kilometrlik hissəsi bərpa edilib. Dövlət sərhədi nəzarətə götürülməklə Ermənistana gətirilən hərbi yüklərin qarşısı alınıb. Bartaz, Sığırt, Şükürataz və daha beş yüksəkliyin azad olunması çox böyük strateji üstünlük idi.

Vətən müharibəsində Zəngilanın azad edilməsi üçün uğurlu "Üç nöqtə" əməliyyatı həyata keçirilib. Belə ki, bir gün əvvəl ərazinin havadan kəşfiyyatı aparılıb, düşmən haqqında məlumat, onun yerləşmə yeri, canlı qüvvəsi, texnikası, atəş mövqeləri dəqiqləşdirilərək müvafiq qərarların qəbul olunması üçün komanda məntəqəsində təhlil olunub. Növbəti gün gecə saatlarında kiçik çevik qruplar tərəfindən sızma əməliyyatı icra olunaraq düşmənə sarsıdıcı zərbələr endirilib və onlar qaçmağa məcbur olublar. Pilotsuz uçuş aparatları vasitəsilə düşmənin dərinliklərindəki artilleriya qurğuları, yaxınlaşmaqda olan texnikası məhv edilib.

**Zəngilanda möhtəşəm bərpa-quruculuq işləri reallaşır**

Vətən müharibəsi yekunlaşandan dərhal sonra sıx meşələri, yaşıl bitki örtüyü, gursulu çayları ilə seçilən Şərqi Zəngəzurun ən gözəl guşələrindən olan Zəngilan rayonunda sürətli yenidənqurma işlərinə başlanılıb. 2022-ci il oktyabrın 20-də Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimi olub. Bu hava limanı Qarabağın mühüm nəqliyyat qovşağına çevrilməsini şərtləndirən əsas amillərdəndir. Azərbaycan və Türkiyə prezidentləri tərəfindən 2021-ci il oktyabrın 26-da təməli qoyulan Zəngəzur dəhlizinin - Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun tikintisi tamamlanmaq üzrədir.



Bundan başqa, Zəngilan rayonunun Ağalı kəndində "ağıllı kənd" layihəsi həyata keçirilib. 2022-ci il mayın 27-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilana "ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimində iştirak ediblər. 2022-ci il iyulun 19-da Ağalı kəndinə əhalinin köçürülməsinə başlanılıb. Böyük Qayıdışın başlanğıcı olan bu proses yaddaqalan hadisə kimi tarixə düşüb.

**Zəngilan Şəhər Günü bütün xalqımız tərəfindən qeyd edilir**

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur hazırda yenidən qurulur, ərazilər minalardan təmizlənir, sürətlə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır. Azad olunan ərazilərdə bərpa-quruculuq işlərinin sürətlə aparılması sakinləri də sevindirir. Artıq Zəngilanda bir çox yenidənqurma işləri görülüb. Ağalı kəndində sakinlər öz həyatlarına davam edir, məktəbdə dərslər keçirilir. Zəngilan şəhərində bir sıra yaşayış komplekslərinin təməli qoyularaq tikinti işləri davam edir. Zəngilan Konqres Mərkəzi
Kompleksinin açılışı olub. Oxçuçayın rayon ərazisindən keçən hissəsində tikilmiş "Cahangirbəyli" Su Elektrik Stansiyası istismara verilib. Heydər Əliyev Fondu tərəfindən Zəngilan şəhər məscidi inşa edilib.

Əlbəttə, Zəngilanda digər önəmli layihələr də icra olunur. Bütövlükdə, 20 oktyabr - Zəngilan Şəhər Günü yalnız zəngilanlılar tərəfindən deyil, bütün xalqımız tərəfindən böyük coşğu ilə qeyd edilir.

*Nardar BAYRAMLI*

# Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı Asiya Mədəniyyət Şurasının 4-cü iclasının iştirakçılarına

**Hörmətli tədbir iştirakçıları!**

Sizi Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı (ICAPP) Asiya Mədəniyyət Şurasının "Milli müxtəliflikdən qlobal həmrəyliyə: yeni dünya nizamında mədəniyyətin rolu" mövzusuna həsr olunmuş 4-cü iclasında ürəkdən salamlayıram.

Asiya qitəsi zəngin mədəni irsi, tarixi müxtəlifliyi və dinamik inkişaf potensialı ilə qlobal transformasiya proseslərini irəli aparmaq üçün geniş imkanlara malikdir. Bu coğrafiyanın xalqlarını təmsil edən siyasi partiyalar yalnız milli mədəni dəyərlərin qorunmasında deyil, həm də beynəlxalq əməkdaşlıq, qarşılıqlı hörmət və sivilizasiyalararası anlaşmanın təşviqində böyük rol oynayırlar.

ICAPP Asiya Mədəniyyət Şurası qitənin mədəniyyətlərarası dialoq potensialının üzə çıxarılmasında vacib platformadır. Asiya Mədəniyyət Şurasının budəfəki iclasının mərkəzi mövzusu bəşəriyyətin ən aktual prioritetləri ilə üst-üstə düşərək yeni qlobal nizamın humanist və inklüziv əsaslar üzərində qurulmasına xidmət edir.

Azərbaycan tarix boyu müxtəlif sivilizasiyaların qovuşduğu, mədəniyyətlərin, dinlərin və ənənələrin qarşılıqlı təsir mühitində formalaşdığı unikal bir məkan olmuşdur. Çoxmillətli və çoxkonfessiyalı ölkəmizin ictimai-siyasi inkişafında bütün dinlərin və etnik qrupların nümayəndələrinin qarşılıqlı hörmət, etimad və sülh şəraitində birgəyaşayışı mühüm rol oynamışdır. Multikulturalizm və tolerantlıq ənənələrinin qorunub saxlanması Azərbaycan cəmiyyətinin sosial-mədəni əsaslarının ayrılmaz tərkib hissəsidir və dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir.

Azərbaycan eyni zamanda beynəlxalq müstəvidə müxtəlif mədəniyyətlər arasında ahəngdar münasibətləri təşviq edir, sivilizasiyalararası dialoq zəminində davamlı olaraq bir sıra təşəbbüslər irəli sürür. Azərbaycanın ənənəvi olaraq ev sahibliyi etdiyi Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu mədəniyyət vasitəsilə sülhün təşviqinə yönələn beynəlxalq təşəbbüsləri dəstəkləyən mühüm platformaya çevrilmişdir.

Müasir dövrdə bəşəriyyət dərin transformasiya mərhələsini yaşayır, mövcud qlobal nizam silahlı münaqişələr, ekoloji böhranlar və sosial-iqtisadi bərabərsizliklər kimi çoxşaxəli çağırışlar qarşısında sınağa çəkilir. Bu şəraitdə mədəniyyət insanları və cəmiyyətləri ali bəşəri dəyərlər ətrafında birləşdirən və sosial inteqrasiyanı təşviq edən əvəzsiz amil kimi çıxış edir. Milli ənənələrin qorunması ilə yanaşı, dialoqa və qarşılıqlı anlayışa açıq olmaq müasir beynəlxalq münasibətlərdə ortaq gələcəyin kollektiv şəkildə formalaşdırılmasını şərtləndirir. Beləliklə, mədəniyyət qlobal sabitliyə töhfə verən mühüm alətə çevrilir.

Keçən ilin noyabrında Azərbaycanın COP29 kimi mötəbər beynəlxalq tədbiri keçirməsi ölkəmizin qlobal dialoq, əməkdaşlıq və konsensus mərkəzi kimi rolunu bir daha təsdiqlədi. İqlim dəyişikliyi ilə mübarizə bəşəriyyətin ortaq səylərini tələb etdiyi kimi, beynəlxalq sülhün, mədəni qarşılıqlı anlaşmanın və qlobal həmrəyliyin qorunması da eyni miqyasda kollektiv öhdəlik zərurətini ortaya qoyur. Hər iki çağırış ölkələri qlobal məsuliyyət və kollektiv öhdəlik prinsipləri əsasında tədbirlər görməyə sövq edir.

Əminəm ki, Şuranın ölkəmizdə təşkil edilən 4-cü iclası Asiyada və onun hüdudlarından kənarda xalqlar arasında dialoq ənənələrinin daha da möhkəmlənməsinə, eləcə də qlobal mədəni inteqrasiyaya yeni təkan verəcəkdir.

İnanıram ki, bu iclasda aparılacaq müzakirələr və qəbul olunacaq qərarlar qlobal dialoqu zənginləşdirərək beynəlxalq ictimaiyyətə həmrəylik və birlik mesajını çatdıracaq, xalqlarımız və ölkələrimiz arasında dostluq və əməkdaşlıq əlaqələrini daha da möhkəmləndirəcəkdir.

Sizə ən xoş diləklərimi çatdırır və tədbirin işinə uğurlar arzulayıram.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 17 oktyabr 2025-ci il***

# "Milli müxtəliflikdən qlobal həmrəyliyə: yeni dünya nizamında mədəniyyətin rolu"






Oktyabrın 17-də Yeni Azərbaycan Partiyasının (YAP) ev sahibliyi ilə Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı (ICAPP) Daimi Komitəsinin (DK) 44-cü və ICAPP Asiya Mədəniyyət Şurasının 4-cü iclasları keçirilib.

Tədbir iştirakçıları əvvəlcə Fəxri xiyabanda müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil və gül dəstələri qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da əziz xatirəsi yad olunub, məzarı üzərinə tər güllər düzülüb. Sonra Şəhidlər Xiyabanı ziyarət olunub, Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş qəhrəman Vətən övladlarının xatirəsi ehtiramla yad edilib, məzarları üzərinə tər güllər düzülüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

ICAPP Daimi Komitəsinin 44-cü iclasında DK sədri Çunq Eu-yonq Komitənin 43-cü iclasından ötən dövrdəki fəaliyyətinə nəzər salaraq görülən işləri diqqətə çatdırıb və qarşılıqlı səmərəli əməkdaşlığın davam etdirilməsinin önəmini vurğulayıb. Daha sonra qarşıda duran vəzifələrə dair ətraflı fikir mübadiləsi aparılıb.

Sonra ICAPP Asiya Mədəniyyət Şurasının 4-cü iclası öz işinə başlayıb. Tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov tədbir iştirakçılarını YAP-ın ev sahibliyi ilə Bakı şəhərində keçirilən ICAPP Asiya Mədəniyyət Şurasının 4-cü iclasında salamlamaqdan məmnunluğunu ifadə edib və dəvəti qəbul edərək tədbirə qatıldıqları üçün təşəkkürünü bildirib.

YAP Sədrinin müavini vurğulayıb ki, müasir dövrdə beynəlxalq münasibətlər sistemində ciddi geostrateji dəyişikliklər baş verməkdədir. Onun sözlərinə görə, qlobal kataklizmlər, çoxsaylı təhdid və çağırışlar fonunda yeni dünya nizamına transformasiya məsələsi aktual müzakirə predmetinə çevrilmişdir: "Dünyada hərbi-siyasi konfrontasiyaların, humanitar böhranların, dini və etnik müstəvidə bir çox ziddiyyətlərin yaşandığı bir dönəmdə müxtəlif mədəniyyətlərin daşıyıcısı olan xalqlar arasında sabitlik və tərəqqi naminə dialoq prosesi ümumbəşəri dəyərlərin qorunması və ölkələrin təhlükəsizliyi baxımından müstəsna əhəmiyyət kəsb edir".

Tahir Budaqov qeyd edib ki, 2020-ci ildə 44 günlük Vətən müharibəsində qələbə qazanaraq öz ərazi bütövlüyünü, 2023-cü ildə bir günlük antiterror əməliyyatı nəticəsində isə tam suverenliyini bərpa edən Azərbaycan ədalətli geosiyasi nizamın tərəfdarı olaraq beynəlxalq hüquq normalarına, o cümlədən dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət, daxili işlərinə müdaxilə olunmaması və qarşılıqlı surətdə milli maraqların nəzərə alınması kimi prinsiplərə əsaslanan müstəqil və konstruktiv siyasət həyata keçirir. YAP Mərkəzi Aparatının rəhbəri bildirib ki, eyni zamanda, dünyada tolerantlıq nümunəsi kimi tanınan Azərbaycan zəngin tarixi irsi əsasında sivilizasiyalar arasında dialoqun inkişafını təşviq edir, bu yolun qarşılıqlı əməkdaşlıq, inteqrasiya, sülh və təhlükəsizliyə xidmət etdiyini əməli fəaliyyəti ilə

davamı 5-ci səhifədə






# “Milli müxtəliflikdən qlobal həmrəyliyə: yeni dünya nizamında mədəniyyətin rolu”


























əvvəli 4-cü səhifədə

nümayiş etdirir. “Bu gün zəngin milli-mənəvi dəyərlərin daşıyıcısı və çoxəsrlik dövlətçilik ənənələrinə sahib olan Azərbaycanda müxtəlif dinlərin və xalqların nümayəndələri sülh, əmin-amanlıq və mehribanlıq şəraitində yaşayırlar. Ölkəmizdə multikulturalizmin həm dövlət siyasətinin prioritetlərindən biri, həm də cəmiyyətin həyat tərzi olması Azərbaycanın sabitlik məkanı və inkişaf diyarı kimi davamlı uğurlarını şərtləndirir. Multikulturalizm, sivilizasiyalararası dialoq, mədəniyyətlərin inteqrasiyası ideyalarının təşviqi istiqamətində ardıcıl işlərin görülməsi - mühüm layihələrin reallaşdırılması həm ölkə daxilində tolerantlıq mühitinin güclənməsinə, həm də Azərbaycanın müsbət beynəlxalq imicinin daha da möhkəmlənməsinə təkan verir. Təsadüfi deyil ki, bu gün respublikamızda yaşayan müxtəlif xalqların nümayəndələri, fərqli dini və etnik mənsubiyyətə malik toplumlar Azərbaycanın inkişafına önəmli töhfələr verirlər. Xüsusi qeyd etmək lazımdır ki, Azərbaycanın İkinci Qarabağ müharibəsində qazandığı şanlı Qələbədə ölkəmizdə yaşayan bütün xalqların mühüm rolu var. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin qeyd etdiyi kimi, “Vətən müharibəsi bir daha onu göstərdi ki, Azərbaycanda bütün xalqlar dostluq, qardaşlıq, həmrəylik şəraitində yaşayır və bu 44 günlük müharibə bir daha onu göstərdi ki, ölkəmizdə milli birlik, milli həmrəylik vardır”, - deyə Tahir Budaqov əlavə edib.

YAP Sədrinin müavini vurğulayıb ki, Asiya və Okeaniyada 350-dən çox siyasi partiyanı bir araya gətirən ICAPP səmərəli dialoqun genişləndirilməsi və çoxtərəfli əməkdaşlığın təşviqi üçün etibarlı platformadır. Onun sözlərinə görə, Yeni Azərbaycan Partiyası da təşkilatın fəal üzvü qismində qarşılıqlı hörmət və bərabərhüquqlu tərəfdaşlıq prinsiplərinə əsaslanan konstruktiv işbirliyini dəstəkləməkdədir: “YAP indiyə qədər təşkilatın bir çox tədbirlərinə müvəffəqiyyətlə evsahibliyi etmiş, bəşəri əhəmiyyətli, qlobal xarakterli aktual mövzularda geniş fikir və təcrübə mübadiləsinin aparılmasına, siyasi partiyalar arasında dialoqun genişləndirilməsinə öz töhfələrini vermiş və ümumi məqsədlərimizə xidmət edən təşəbbüsləri ardıcıl surətdə dəstəkləmişdir. 2022-ci ildə Bakı şəhərində keçirilmiş ICAPP-ın “Təhlükəsizlik və əməkdaşlıq: siyasi partiyaların rolu” mövzusunda xüsusi konfransını bu baxımdan ayrıca qeyd etmək istəyirəm. “Milli müxtəliflikdən qlobal həmrəyliyə: yeni dünya nizamında mədəniyyətin rolu” mövzusuna həsr olunmuş bugünkü iclasımız isə yeni dünya nizamına transformasiya şəraitində qlobal həmrəylik axtarışında olan bəşəriyyət üçün həm siyasi, həm də mədəni kontekstdə aktual məsələlərin müzakirəsi baxımından olduqca mühüm önəm kəsb edir”.

ICAPP kimi mötəbər beynəlxalq platforma vasitəsilə müxtəlif ölkələrin siyasi partiyaları arasında əlaqələrin genişləndirilməsi və əməkdaşlığın dərinləşdirilməsinin son dərəcədə önəmli olduğunu söyləyən Tahir Budaqov “Partiyalarımız arasındakı sıx təmaslar ikitərəfli əlaqələrin inkişafına təkan verməklə yanaşı, bir çox istiqamətlərdə, o cümlədən mədəniyyətlərarası dialoq kontekstində uzunmüddətli və çoxşaxəli əməkdaşlığa hədəflənmişdir. Bugünkü tədbirimizin də beynəlxalq münasibətlərin bərabərlik, açıqlıq və əməkdaşlıq prinsipləri əsasında qurulması yönündə təşəbbüslərə töhfə verəcəyinə və faydalı nəticələrlə yadda qalacağına inamımı ifadə edərək hər birinizə fəaliyyətinizdə uğurlar arzulayır və diqqətinizə görə təşəkkürümü bildirirəm”, - deyə əlavə edib.

Sonra çıxış edən ICAPP Daimi Komitəsinin sədri, Koreya Respublikasının sabiq xarici işlər naziri Çunq Eu-yonq tədbirin yüksək səviyyədə təşkilinə və səmimi qonaqpərvərliyə görə Yeni Azərbaycan Partiyasına təşəkkür edib. ICAPP Daimi Komitəsinin sədri bildirib ki, mədəniyyət sadəcə keçmişi əks etdirmir, eyni zamanda, gələcəyimizi formalaşdıran dinamik qüvvədir. O, mədəni irsin qorunmasının və bu istiqamətdə fəaliyyətlərin təşviqinin cəmiyyətlərin inklüzivliyini effektiv şəkildə artıra biləcəyinə və sosial birliyi gücləndirəcəyinə əminliyini ifadə edib.

Çunq Eu-yonq UNESCO-nun mədəniyyəti milli və sosial dayanıqlılığın sütunu adlandırmasına diqqəti çəkib. O, təşkilatın 2024-cü il qlobal hesabatına istinad edərək mədəniyyətin mənsubiyyət, dialoq və ortaq məqsədi əsas götürməklə mədəni, siyasi və sosial dayanıqlılığı formalaşdırdığını deyib: “Mədəniyyət sahəsinə investisiya qoyuluşunda yaranan boşluqlar, çıxış imkanlarında bərabərsizlik və institusional dəstəyin çatışmazlığı bu sahənin sabitləşdirici roluna təhlükə yaradır. Bu, UNESCO-nun xəbərdarlıq etdiyi ciddi problemlərdəndir. Siyasətçilər olaraq biz bu məsələdə məsuliyyət daşıyırıq. Siyasi partiyalar, hökumətlər və mədəniyyət institutları arasında dialoq gücləndirilməlidir. Mədəni müxtəlifliyi demokratiyanın, barışın və dayanıqlı inkişafın təməl daşı kimi siyasət, təhsil və innovasiya sahələrinə daxil etməliyik”.

Çunq Eu-yonq ICAPP Asiya Mədəniyyət Şurasının 4-cü iclasının əhəmiyyətinə toxunaraq tədbirin sürətlə dəyişən dünyada mədəniyyətin millətlər arasında necə mühüm bir körpü rolunu oynadığını, sülhü və qarşılıqlı hörməti təşviq etdiyini deyib. “Biz tədbir çərçivəsində aparılan müzakirələrdə zəngin mədəni irsimizin əməkdaşlığa necə təkan verə və davamlılığı necə gücləndirə biləcəyini müzakirə edirik. Birləşmiş Millətlər Təşkilatının “Mədəniyyət-2030” çərçivə sənədinə uyğun şəkildə müxtəlif mədəniyyətlərin inteqrasiya üsullarını müəyyən etmək olduqca vacib şərt kimi önə çıxır”, - deyən Çunq Eu-yonq Asiya Mədəniyyət Şurasının yarandığı vaxtdan ICAPP-ın ən fəal platformalarından biri olmasına, mədəniyyəti sülh və həmrəyliyin hərəkətverici qüvvəsi kimi irəli aparmaq naminə səylər göstərdiyinə diqqəti çəkib. O, Bakıda baş tutan bu tədbirin əməkdaşlığı daha da dərinləşdirmək, dəyərli təcrübələri paylaşmaq, ideyaları mübadilə və yeni əməkdaşlıq yollarını müəyyən etmək üçün mühüm fürsət olduğunu bildirib.

Sonra Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin iclas iştirakçılarına müraciətini səsləndirib.

Daha sonra Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli çıxış edib. O bildirib ki, ICAPP Asiya Mədəniyyət Şurasının 4-cü iclasının Bakıda keçirilməsi ölkəmizə göstərilən etimadın və Yeni Azərbaycan Partiyasının beynəlxalq aləmdə etibarlı tərəfdaş olmasının göstəricisidir. Onun sözlərinə görə, bu qurum regional əməkdaşlığın və mədəni dialoqun inkişafında mühüm rol oynayır.

“Müasir dövrdə siyasi partiyalar cəmiyyətlərin və dövlətlərin həyatında, eləcə də ictimai-siyasi proseslərin formalaşmasında əhəmiyyətli yer tutur” , - deyən A.Kərimli əlavə edib ki, bu gün dünyada baş verən mürəkkəb geosiyasi proseslərin fonunda daha aydın görürük ki, siyasi partiyalar yalnız daxili siyasi sistemin deyil, həm də beynəlxalq əməkdaşlığın, xalqlar arasında həmrəyliyin əsas dayaqlarından biridir.

A.Kərimli qeyd edib ki, Azərbaycan qədim tarixə, zəngin mədəni irsə və dərin milli-mənəvi dəyərlərə malik olan bir ölkədir. Onun sözlərinə görə, Azərbaycanın mədəni irsinin və mədəni dəyərlərinin zənginliyindən, onun təsir gücündən bu gün dövlət idarəetməsində, ictimai münasibətlərdə və beynəlxalq əlaqələrdə önəmli təsir vasitəsi kimi istifadə edilir. “Mədəni dəyərlər və mədəniyyət amili Azərbaycan xalqının Ümummilli Lideri, Yeni Azərbaycan Partiyasının qurucusu, müasir Azərbaycan dövlətinin memarı Heydər Əliyevin dövlətçilik siyasətində əsas istiqamətlərdən birini təşkil etmişdir”, - deyən nazirin sözlərinə görə, bu siyasi xətt bu gün də Prezident İlham Əliyev tərəfindən ardıcıl şəkildə davam etdirilir: “Prezident İlham Əliyevin rəhbərliyi ilə mədəniyyət dövlətin beynəlxalq siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən olunmuşdur. Azərbaycan həm öz zəngin mədəni irsini qoruyur, həm də müasir qlobal mədəni proseslərin fəal iştirakçısına, multikulturalizmin ünvanına çevrilir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, “Multikulturalizm bizim dövlət siyasəti olmaqla yanaşı, Azərbaycanda bir həyat tərzidir”.

Nazir deyib ki, dövlətlər və xalqlar arasında mədəni mübadilənin inkişafında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti xüsusi qeyd olunmalıdır: “Fond ölkə daxilində və xaricdə mədəni müxtəlifliyin təşviqi, dəyərlərimizin və irsin təbliği, həmçinin xarici ölkələrin mədəni irs nümunələrin bərpasında aktiv fəaliyyət göstərməkdədir. Vatikanda Roma katakombalarının bərpası, Parisdə Versal Sarayının parkındakı ümumbəşəri abidələrin bərpası kimi çox sayda nümunələri qeyd etmək olar”.

Onun sözlərinə görə, qloballaşma dövründə milli kimliyin qorunması, mədəni irsin gələcək nəsillərə ötürülməsi həm də milli təhlükəsizlik məsələsidir: “Milli müxtəlifliyi qorumaq və təşviq etmək yalnız milli dövlətlərin və hökumətlərin deyil, beynəlxalq təşkilatların və dünya ictimaiyyətinin də ümumi məsuliyyətidir”.

ICAPP-ın Baş katibi, Koreya Respublikasının Monqolustandakı və Portuqaliyadakı sabiq səfiri Oh Sonq isə ICAPP Asiya Mədəniyyət Şurasının Fəaliyyət qaydalarına dəyişiklikləri və Büro üzvlüyünə namizədləri təqdim edib. YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov Asiya Mədəniyyət Şurasının sədri seçilib.

İclas ICAPP Daimi Komitəsi sədrinin müavini, Asiya Mədəniyyət Şurasının sabiq sədri, hazırda isə sədr müavini, Kamboca Milli Assambleyasının Xarici əlaqələr, beynəlxalq əməkdaşlıq və informasiya komitəsinin sədri, Kamboca Xalq Partiyasının Xarici əlaqələr komissiyası sədrinin birinci müavini Suos Yara və ICAPP Asiya Mədəniyyət Şurasının sədri, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin komitə sədri Şahin İsmayılovun moderatorluğu ilə plenar sessiyalarla davam edib.

Sonra ICAPP Asiya Mədəniyyət Şurasının sədri Şahin İsmayılov Şuranın 4-cü iclasının yekun hesabatını təqdim edib.

Şahin İsmayılov bildirib ki, bugünkü tədbir Asiyanın mədəni potensialının yalnız keçmişə deyil, gələcəyə yönəlmiş strateji imkan olduğunu göstərdi: “Çıxışların ümumi təhlili onu deməyə əsas verir ki, mədəniyyət təkcə tarixi və irsi yaddaş deyil, həm də müasir dövrün iqtisadi və siyasi proseslərinə təsir edən vacib amildir. Bu prosesdə siyasi partiyaların rolu xüsusi vurğulandı. Onların faydalı əməkdaşlıq təşəbbüsləri gələcəkdə ortaq regional inkişaf üçün açar rolunu oynaya bilər. Siyasi partiyaların birgə fəaliyyəti, dialoqu və mədəni layihələrə dəstəyi bu kontekstdə xüsusi əhəmiyyət daşıyır. Region ölkələri mədəniyyət vasitəsilə təhsil, innovasiya, diplomatiya və iqtisadi sahələrdə ortaq gələcək vizionu formalaşdırmaq niyyətindədir. Bu istiqamətdə siyasi iradə, institusional əməkdaşlıq və konkret layihələrin icrası vacibdir”.

Daha sonra Bakı Bəyənnaməsi qəbul edilib.

Bağlanış nitqi ilə çıxış edən ICAPP Daimi Komitəsinin həmsədri və xüsusi məruzəçisi, Pakistan Müsəlman Liqası Nəvazın üzvü Muşahid Hüseyn Sayed Azərbaycan ilə Pakistan arasında səmimi dostluq, qardaşlıq və çoxşaxəli əməkdaşlıq münasibətlərinin olduğunu diqqətə çatdırıb. O qeyd edib ki, Bakıda keçirilən ICAPP Asiya Mədəniyyət Şurasının 4-cü iclası qarşılıqlı fikir mübadiləsi və əməkdaşlıq üçün mühüm platformadır.

ICAPP Daimi Komitəsinin həmsədri tədbirin ICAPP çərçivəsində səmərəli işbirliyinin önəmini diqqətə çatdıraraq siyasi partiyaların mədəniyyətlərarası dialoqa mühüm töhfə verə biləcəyinə inamını ifadə edib. O bildirib ki, yeni dünya nizamına transformasiya şəraitində mədəniyyətlərin inteqrasiyası olduqca vacibdir.

Tədbir Yeni Azərbaycan Partiyası Himninin səsləndirilməsi ilə başa çatıb.




# Ümumdünya Statistika Günü: Məlumatların gücü

Ümumdünya Statistika Günü beş ildən bir 20 oktyabrda qeyd olunur və bu günün əsas məqsədi statistikanın cəmiyyət üçün əhəmiyyəti olduğunu bütün dünyaya çatdırmaqdır. İlk dəfə 2010-cu ildə Birləşmiş Millətlər Təşkilatı tərəfindən təsis edilən bu gün, beynəlxalq statistika təşkilatları və müxtəlif ölkələr tərəfindən böyük həvəslə qeyd olunur.

Ümumdünya Statistika Günü çərçivəsində müxtəlif tədbirlər keçirilir: beynəlxalq və yerli konfranslar, seminarlar, vebinarlar, təlimlər və maarifləndirici kampaniyalar təşkil edilir. 2025-ci ilin 24-26 sentyabr tarixlərində "Statistikanın inkişaf perspektivləri: beynəlxalq layihələrin rolu" mövzusunda Bakı şəhərində keçirilmiş 3-sü Beynəlxalq Statistika Forumu buna bariz nümunədir. Bu səpkidən olan tədbirlərdə statistika elminin inkişafı, məlumatların düzgün toplanması, təhlili və yayılması mövzularında müzakirələr aparılır. Dövlət statistika qurumları, təhsil müəssisələri və digər təşkilatlar ictimaiyyəti statistik məlumatların əhəmiyyəti barədə məlumatlandırmaq üçün fəal iş aparırlar. Bununla yanaşı, həmin tədbirlər statistika məlumatlarının şəffaflığını və keyfiyyətini artırmaq məqsədilə beynəlxalq əməkdaşlığı təşviq edir. Beynəlxalq əməkdaşlıq sayəsində isə statistik standartlar təkmilləşdirilir, innovativ metodlar tətbiq edilir və məlumatların etibarlılığı təmin olunur.

Hər il bu günün mövzusu dəyişir və mövzuya uyğun olaraq müxtəlif təşəbbüslər həyata keçirilir. Məsələn, məlumatların açıq və sərbəst paylaşılması, rəqəmsal transformasiya, gender statistikası və ya Dayanıqlı İnkişaf Məqsədləri kimi mövzular seçilə bilər. Bu, statistikanın cəmiyyətin müxtəlif sahələrinə təsirini daha geniş və dərindən nümayiş etdirir.

Müasir dövrdə həyatımızın hər sahəsində statistik məlumatlardan istifadə olunur. Dövlətlər iqtisadi siyasətlərini formalaşdırarkən, səhiyyə qurumları xəstəliklərin yayılmasını izləyərkən, təhsil sahəsində təkmilləşdirmələr aparılarkən və hətta gündəlik həyatımızda hadisələri qiymətləndirərkən belə statistik məlumatlar əsas götürülür. Statistikaya olan ehtiyacın artması, onun elmi və texnoloji yeniliklərlə inkişafı, bu günü bütün dünyada xüsusi qeyd etməyə səbəb olmuşdur.

Statistika insan həyatının müxtəlif sahələrində əsas rol oynayır və düzgün qərarların qəbul olunmasında vacib vasitədir. Dövlət idarəçiliyində, iqtisadi və sosial sahələrdə statistik məlumatlar olmadan effektiv planlaşdırma və inkişaf mümkün deyil.

Statistika, sadəcə rəqəmlər və cədvəllərdən ibarət olmamaqla yanaşı, məlumatların toplanması, işlənməsi, təhlili və nəticələrin interpretasiyası elmi kimi də qəbul edilir. Bu elmin əsas məqsədi toplanan məlumatların təhlilini apararaq, onlardan düzgün nəticələr çıxarmaq və insanların, qurumların və dövlətlərin daha səmərəli qərarlar verməsinə kömək etməkdir.

Dövlət idarəçiliyində statistik məlumatlar, əhalinin sosial və iqtisadi vəziyyətini anlamaq üçün əsas vasitədir. Məsələn, əhali sayının dəqiq müəyyən edilməsi, yaşayış səviyyəsinin qiymətləndirilməsi, işsizlik və yoxsulluq kimi problemlərin təhlili dövlət siyasətinin formalaşmasına və sosial proqramların hazırlanmasına yardım edir. Statistik məlumatlar vasitəsilə dövlətlər öz resurslarını daha düzgün bölüşdürür və vətəndaşların ehtiyaclarını qarşılayacaq tədbirlər görür.

İqtisadiyyatda isə statistika müəssisələrə bazar tendensiyalarını izləmək, istehsalın həcmini təhlil etmək və investisiya qərarları vermək üçün əsas alətdir. Məsələn, inflyasiya göstəriciləri, valyuta məzənnələri və işsizlik səviyyəsi kimi statistik göstəricilər ölkənin iqtisadi sağlamlığını müəyyənləşdirməkdə əhəmiyyətlidir. Bu məlumatlar, bizneslərin rəqabət qabiliyyətini artırmaq və bazarda mövqeyini qorumaq üçün düzgün strategiyaların hazırlanmasına şərait yaradır.

Səhiyyə sahəsində statistik məlumatların rolu həyati əhəmiyyət kəsb edir. Xəstəliklərin yayılmasını izləmək, tibbi xidmətlərin keyfiyyətini artırmaq və epidemiyalara qarşı effektiv mübarizə aparmaq üçün statistik təhlillərdən geniş istifadə olunur. Məsələn, COVID-19 pandemiyası zamanı statistik məlumatlar virusun yayılma tempini izləmək və müvafiq tədbirlər görmək üçün əsas vasitə oldu.

Təhsil sahəsində isə statistik məlumatlar tələbələrin və məktəblərin fəaliyyətini qiymətləndirmək, təhsil sistemində mövcud problemləri aşkar etmək və inkişaf üçün strategiyalar hazırlamaq üçün istifadə edilir. Statistik göstəricilər təhsil siyasətçilərinə təkmilləşdirmə üçün əsaslı məlumatlar təqdim edir və təhsil sisteminin səmərəliliyini artırır.

Beləliklə, statistik məlumatlar mövcud vəziyyətin obyektiv və hərtərəfli qiymətləndirilməsini təmin edir, planlaşdırma və qərarvermə proseslərini əsaslandırır.

Azərbaycanda statistika sahəsi uzun və zəngin tarixə malikdir və müasir dövrdə ölkənin sosial-iqtisadi inkişafının təhlilində və planlaşdırmasında əsas vasitə kimi çıxış edir. Ölkədə statistika sistemi geniş sahələri əhatə edir: əhali sayının və demoqrafik göstəricilərin müəyyənləşdirilməsi, əmək bazarı və işsizlik səviyyəsi, sənaye, kənd təsərrüfatı, ticarət, xidmətlər, təhsil, səhiyyə, ətraf mühit və digər sosial-iqtisadi sahələrdə məlumatların toplanması həyata keçirilir. Bu məlumatlar əsasında ölkədə makroiqtisadi göstəricilər, o cümlədən ÜDM-in artımı, inflyasiya səviyyəsi, ixrac və idxalın həcmi, investisiyalar və digər vacib iqtisadi parametrlər müəyyənləşdirilir.

Azərbaycan iqtisadiyyatında aparılan islahatlar və modernləşdirmə tədbirləri statistik məlumatların toplanmasına innovativ yanaşmaların tətbiq edilməsinə şərait yaratmışdır. Dövlət Statistika Komitəsi beynəlxalq təşkilatlarla, xüsusilə BMT-nin Statistika Komissiyası, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu və Avropa Statistika Bürosu kimi qurumlarla sıx əməkdaşlıq edir. Bu əməkdaşlıq Azərbaycanın statistik məlumatlarının beynəlxalq standartlara uyğunluğunu təmin edir, yeni metodologiyaların tətbiqinə imkan yaradır və məlumatların keyfiyyətinin yüksəldilməsinə yönəlmiş tədbirləri gücləndirir.

Azərbaycanın statistika sistemində rəqəmsal texnologiyaların tətbiqi önəmli yer tutur. Dövlət Statistika Komitəsi elektron məlumat toplama sistemlərinə keçid edib, məlumatların toplanması və işlənməsi proseslərini avtomatlaşdırır. Bu isə məlumatların operativliyini və dəqiqliyini artırır, həmçinin vətəndaşlar və biznes subyektləri üçün açıqlığı və şəffaflığı gücləndirir. Məlumatların açıq verilməsi və ictimaiyyətə təqdim olunması ölkədə informasiya cəmiyyətinin formalaşmasına böyük töhfə verir.

Statistika sahəsində kadr hazırlığına da böyük önəm verilir. Azərbaycanda ali təhsil müəssisələrində statistika, informasiya texnologiyaları və məlumat elmləri üzrə ixtisaslar mövcuddur. Dövlət və özəl sektorda statistik biliklərə malik mütəxəssislərin hazırlanması, davamlı təlim və sertifikat proqramları tətbiq olunur. Bu da ölkənin statistik potensialının artırılmasına, eləcə də məlumatların daha peşəkar və daha dəqiq emalına zəmin yaradır.

Azərbaycanın statistik məlumatları həm yerli, həm də beynəlxalq tədqiqatlarda geniş istifadə olunur. Bu məlumatlar vasitəsilə ölkənin sosial-iqtisadi vəziyyəti daha obyektiv qiymətləndirilir, davamlı inkişaf strategiyaları hazırlanır və həyata keçirilir.

Ümumilikdə, Azərbaycan statistika sahəsində müasir standartlara uyğun fəaliyyət göstərir və bu sahədə əldə edilən nailiyyətlər ölkənin davamlı və dayanıqlı inkişafına mühüm töhfələr verir. Statistika məlumatlarının keyfiyyətli və şəffaf olması dövlət idarəçiliyinin səmərəliliyini artırır, iqtisadiyyatın inkişafına təkan verir və vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılmasına xidmət edir.

Statistika elmi və tətbiq sahəsi müasir dövrdə texnologiyanın sürətli inkişafı ilə əhəmiyyətli dəyişikliklərə məruz qalır. Yeni texnoloji yeniliklər və innovasiyalar statistik məlumatların toplanması, işlənməsi və təhlili proseslərini daha dəqiq, sürətli və effektiv edir. Bu da öz növbəsində, dövlət idarəçiliyi, sosial-iqtisadi və digər sahələrdə verilən qərarların keyfiyyətini artırır və onların əsaslı olmasına şərait yaradır. Yeni texnologiyaların tətbiqi sayəsində statistika elmi gələcəyə daha güvənli addımlayır, məlumatların dəqiqliyi, vaxtında əldə olunması və istifadəsi daha da yüksəlir. Bu isə ölkələrin və qlobal cəmiyyətin inkişafında statistik məlumatların rolunu artırır.

Ölkəmizdə yeni texnologiyaların tətbiqinə böyük önəm verilir və bu sahədə müvafiq addımlar atılır. Elektron məlumat toplama sistemləri, rəqəmsal platformalar, informasiya təhlükəsizliyi tədbirləri müasir standartlara uyğunlaşdırılır, yeni metodologiyalar və texnologiyalar tətbiq olunur.

Böyük məlumatların (big data) təhlili, süni intellekt alətləri, interaktiv məlumat bazaları ölkədə statistik fəaliyyətin səmərəliliyini artırmaq üçün geniş istifadə edilir. Bu da ölkənin sosial-iqtisadi inkişafının düzgün qiymətləndirilməsinə və davamlı inkişaf strategiyalarının formalaşdırılmasına imkan yaradır.

Bununla yanaşı, Dövlət Statistika Komitəsi və digər müvafiq qurumlar statistik məlumatların açıq və interaktiv formatda təqdim olunmasına da xüsusi önəm verirlər. Bu da istifadəçilərin statistik məlumatlara əlçatanlığının artmasına şərait yaradır.

Azərbaycanda yeni texnologiyaların tətbiqi statistika sisteminin müasir standartlara uyğun inkişafına və ölkənin davamlı sosial-iqtisadi inkişafına böyük töhfə verir.

Ümumdünya Statistika Günü bizə statistikanın cəmiyyət və həyatımız üçün nə qədər vacib olduğunu bir daha xatırladır. Statistik məlumatlar olmadan dövlətlər, müəssisələr və fərdlər düzgün qərarlar qəbul edə bilməz, gələcək planlar qura bilməzlər. Statistik elmin inkişafı isə daha şəffaf, məlumatlı və ədalətli cəmiyyətlərin formalaşmasına təkan verir.

Müasir dünyada informasiya texnologiyalarının sürətli inkişafı ilə birlikdə statistikanın rolu daha da artır. Böyük məlumatların (big data) təhlili və süni intellektin tətbiqi statistikanın əhatə dairəsini genişləndirir və həyatımızı daha da asanlaşdırır. Məsələn, süni intellekt və maşın öyrənməsi texnologiyaları vasitəsilə böyük həcmdə məlumatlar qısa zamanda analiz edilərək daha dəqiq proqnozlar və qərarlar verilir.

Statistik məlumatların düzgün toplanması, işlənməsi və paylaşılması isə cəmiyyətin informasiyaya olan inamını artırır. Məlumatların şəffaflığı, etik prinsiplərə riayət olunması və keyfiyyət standartlarının qorunması statistikanın obyektivliyini təmin edir və onun cəmiyyət üçün faydalı olmasını gücləndirir. Bu isə vətəndaşların dövlət siyasətinə, elmi tədqiqatlara və iqtisadi proseslərə inamını möhkəmləndirir.

Ümumdünya Statistika Günü həmçinin bütün ölkələri və təşkilatları statistik məlumatların keyfiyyətini artırmaq, innovativ metodlar tətbiq etmək və beynəlxalq əməkdaşlığı gücləndirmək üçün çağırış edir. Qlobal problemlərin həllində statistik məlumatların rolu böyükdür; məsələn, iqlim dəyişikliyi, pandemiyalar və iqtisadi böhran kimi məsələlərdə statistik analizlər effektiv strategiyaların hazırlanmasına imkan verir.

Beləliklə, Ümumdünya Statistika Günü yalnız statistikaya diqqət çəkmək üçün deyil, həm də hər birimizi məlumatlı qərarlar verməyə, dünyadakı dəyişiklikləri düzgün qiymətləndirməyə və statistikaya hörmətlə yanaşmağa dəvət edir. Statistikaya olan inam və məlumatların düzgün istifadəsi cəmiyyətin inkişafı, daha təhlükəsiz və ədalətli gələcəyin qurulması üçün əsas şərtdir.

***Elçin Hacı,***
***Dövlət Statistika Komitəsi***
***Sosial statistika şöbəsinin müdiri***

# Dövlətin dəstəyi sayəsində...

## Biznesin sayı və fəaliyyət sahələri genişlənir

Ölkəmizdə azad sahibkarlığın inkişafı istiqamətində mühüm addımlar atılmaqdadır. Sahibkarlıq fəaliyyətinə göstərilən dövlət dəstəyi, yaradılan əlverişli hüquqi və iqtisadi mühit, eləcə də təşviqedici mexanizmlər öz müsbət nəticələrini göstərməkdədir. Bu səmərəli iqlim sayəsində on minlərlə şəxs biznes quraraq ölkə iqtisadiyyatının inkişafına töhfələr verir. Son illərdə işğaldan azad olunmuş ərazilərdə də sahibkarlıq fəaliyyətinin genişləndirilməsi müşayiət olunmaqdadır. Dövlət tərəfindən yaradılan zəruri infrastrukturlar iqtisadi fəaliyyət üçün imkanlar yaratmaqla, regionun iqtisadi inkişafında mühüm rol oynayır. 2023-cü ilin əvvəlindən etibarən 10 il müddətinə müvafiq ərzilərdə yaradılan və fəaliyyət göstərən müəssisələrə və sahibkarlara bir sıra vergi və fiskal güzəştlər tətbiq edilib, onlar gəlir, mənfəət, torpaq, əmlak və sadələşdirilmiş vergidən, istehsal fəaliyyəti sahələri üzrə xammal və materialların idxalının 10 il müddətində ƏDV-dən azad ediliblər. Habelə işğaldan azad edilmiş ərazinin rezidenti olan hüquqi şəxslərin səhmdarlarının dividend gəlirləri 10 il müddətində vergidən azad olunub. Qeyri-dövlət və qeyri-neft sahələrində fəaliyyət göstərən sahibkarların məcburi dövlət sosial sığorta haqqı dövlət büdcəsi vəsaiti hesabına subsidiyalaşdırılır. Bütün bu güzəşt və stimullar sahibkarların istehsal xərclərinin azalmasına, yığım imkanlarının genişlənməsinə və təkrar investisiya üçün əlverişli maliyyə mənbələrinin yaradılmasına imkan verir, həmçinin istehsal olunan mal və xidmətlərin maya dəyərinin optimallaşdırılması yolu ilə rəqabət qabiliyyətinin dəstəklənməsini təmin edir.

# Qarabağ və Şərqi Zəngəzurda sahibkarların sayı 100 mini ötüb

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2025-ci il oktyabrın 1-nə olan tarixə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında 98.144-ü fərdi sahibkar olmaqla, ümumilikdə 103.545 sahibkarlıq subyekti qeydə alınıb. Belə ki, Qarabağ iqtisadi rayonunda mikrosahibkarlıq subyektlərinin sayı 4.077, kiçik sahibkarlıq subyektlərinin sayı 240, orta sahibkarlıq subyektlərinin sayı 90, iri sahibkarlıq subyektlərinin sayı 16 olub. Bu bölgədə 91.009 fərdi sahibkar fəaliyyət göstərib ki, onlardan 73.320 nəfəri kişi, 17.689 nəfəri qadın sahibkardır.

Şərqi Zəngəzur iqtisadi rayonunda isə 947 mikro, 57 kiçik, 21 orta, 3 iri sahibkarlıq subyekti fəaliyyət göstərir. Həmin iqtisadi rayon üzrə fərdi sahibkarların sayı 7.135 nəfər təşkil edib ki, onlardan 5.427 nəfəri kişi, 1.708 nəfəri qadın sahibkarlardır.

# Sahibkarlar 642 milyon manat güzəştli kredit əldə ediblər

Bu il oktyabrın 1-nə qədər İpoteka və Kredit Zəmanət Fondunun zəmanəti ilə Azərbaycan sahibkarlarına güzəştli şərtlərlə 642 milyon manat kredit verilib, bunun 93 milyon manatı bu ilin yanvar-sentyabr aylarının payına düşüb. Xatırladaq ki, dövlət başçısının 29 noyabr 2017-ci il tarixli fərmanı ilə ölkədə ilk dəfə sahibkarların müvəkkil banklardan manatla aldıqları kreditlərə zəmanətin və bu kreditlər üzrə hesablanmış faizlərə görə subsidiya verilməsinə başlanılıb. Kredit-zəmanət mexanizminin formalaşdırılması və inkişaf etdirilməsi fondun qarşısında prioritet vəzifə kimi müəyyən edilib.

Bu mexanizm çərçivəsində indiyə qədər zəmanət verilmiş kreditlərin orta müddəti 30 ay, fond tərəfindən sahibkarlıq kreditləri üzrə hesablanmış faizlərin bir hissəsinə subsidiyanın verilməsi hesabına sahibkarların ödəyəcəyi kreditlər üzrə faktiki faiz dərəcəsi 6,2 faiz, bir sahibkara ayrılan kreditin məbləği isə 30 min manatdan 5 milyon manata qədər təşkil edib. Kreditlər sənaye məhsullarının istehsalı və emalı, kənd təsərrüfatı və qida sənayesi, tikinti sektoru, turizm və infrastrukturun inkişaf etdirilməsi ilə bağlı sahələrə, maşın və avadanlıq istehsalına, ticarət və xidmət sektoruna yönəldilib. Fondun zəmanət və faiz subsidiyası hesabına sahibkarlara ayılan kreditlər vasitəsilə maliyyələşən layihələr üzrə 6 mindən çox yeni iş yerinin yaradılması nəzərdə tutulub.



# Qadın sahibkarların sayı 7 faiz artıb

Ölkəmizdə təmin edilmiş güzəşt və iqtisadi stimullar qadın biznes təmsilçilərinin sayının da artmasına və həyata keçirilən layihələrin aktivliyinə səbəb olmaqdadır. 2025-ci ilin altı ayında Azərbaycanda sahibkarlıq fəaliyyəti ilə məşğul olan qadınların sayı 330 mindən çox olub. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyəti sədrinin birinci müavini Samir Hümbətovun sözlərinə görə, ötən illə müqayisədə qadın sahibkarların sayında 7 faiz artım qeydə alınıb. "2025-ci il yanvarın 1-nə olan məlumata əsasən, ölkəmizdə məşğul əhalinin 48 faizini qadınlar təşkil edir. Fəaliyyətdə olan fərdi sahibkarların 23 faizdən çoxu qadındır. 2024-cü ildə təsisçisi qadın olan 2800-ə yaxın KOB subyekti qeydiyyatdan keçib. Bu da Azərbaycanda qadın sahibkarlığının inkişaf etdiyini və bundan sonra da inkişaf edəcəyini göstərir".

Eyni zamanda, Qarabağ və Şərqi Zəngəzur bölgəsində müxtəlif proqramlar və təşəbbüslər vasitəsilə qadınların biznesə cəlb olunması, onların sahibkarlıq sahəsində bilik və bacarıqlarının artırılması istiqamətində geniş işlər görülür. Bunun nəticəsidir ki, regionda yeni müəssisə və sahibkarlıq subyektlərinin sayında fəal təmsil olunan qadın sahibkarlar məşğulluğun və yeni iş yerlərinin də dayanıqlığını təmim edirlər.

***Yeganə***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" istiqaməti üzrə hazırlanmışdır**

# Ən az xarici borca malik ölkə

## Azərbaycanın iqtisadi potensialı xarici borcu tam bağlamağa imkan verir

**2025-ci il oktyabrın 1-nə olan məlumata görə Azərbaycanın xarici dövlət borcu 4,9 milyard dollar təşkil edib. Bu, son 7 ildə borcun 2 dəfəyə yaxın azaldılması deməkdir. Maliyyə Nazirliyi yanında Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyinin direktoru Azər Mursaqulov bildirib ki, 2018-ci ildə xarici dövlət borcu 8,9 milyard dollar təşkil edirdi və müəyyən edilmiş strateji hədəflər çərçivəsində borcun həm nominal həcmi, həm də ÜDM-də nisbəti aşağı düşüb. Ümumilikdə, ölkəmizin xarici və daxili borclar daxil olmaqla toplam borc portfelinin həcmi 25 milyard manat ekvivalentində və ya proqnozlaşdırılan ÜDM-in 19,5 faizinə bərabərdir. Ümumi dövlət borcunun 8,4 milyard manatı (4,9 milyard dollar) və ya 33,2 faizi xarici dövlət borcunun (ÜDM-in 6,5 faizi ), 17,1 milyard manatı və ya 66,8 faizi daxili dövlət borcunun (ÜDM-in 13,1 faizi) payına düşür.**

## Cənubi Qafqaz regionunun sabit və qüdrətli dövləti

Xarici borcun faizlər üzrə strukturu də təmkinli siyasət üzrə müəyyələşib. Belə ki, dəyişkən faiz dərəcəsi üzrə öhdəliklər xarici borc portfelinin 49,3 faizini, sabit dərəcə üzrə öhdəliklər isə 50,7 faizini təşkil edir. Xarici dövlət borcunun 49,9 faizi 5 ilə qədər olan müddətdə, 44,1 faizi 5 ildən 10 ilə qədər olan müddətdə, qalan 6 faizi isə 10 ildən yuxarı olan müddətdə kreditorlara qaytarılmalıdır.

Xarici dövlət borcunun valyuta tərkibi isə aşağıdakı kimi təsnifləşdirilə bilər:

* Beynəlxalq Valyuta Fondunun xüsusi borcalma hüquqları üzrə 3,4 faiz;
* ABŞ dolları ilə 85,1 faiz;
* Avro ilə 6,5 faiz;
* Yapon yeni ilə 3,3 faiz;
* Digər xarici valyutalar üzrə 1,7 faiz

Azərbaycan hazırda xarici borcun vəziyyətinə görə, dünyanın ən sabit ölkələri sırasında yer alır. Ölkəmizdə xarici borcun ÜDM-də payı 6,5 faiz olmaqla ümumdünya göstəricilərindən qat-qat aşağıdır. Beynəlxalq praktikada xarici borcun ÜDM-də nisbəti 50 faizi ötdükdə bu, təhlükəli hədd sayılır. Borcun məbləğinin yüksək olması ölkənin ümumi xarici öhdəliklərini pisləşdirməklə yanaşı, milli iqtisadi təhlükəsizliyinə də mənfi təsir göstərir.

Azərbaycan xarici borcun bu nisbətinə görə, MDB, Asiya və Şərqi-Avropa regionu ölkələrinin əksəriyyətindən xeyli yaxşı mövqedədir. Belə ki, Cənubi Qafqaz regionu ölkələrində xarici borcun ÜDM-də nisbəti 40-50 faizə bərabərdir. Ermənistan xarici borcun həcminə görə, bu bölgədə ən təhlükəli ölkələr sırasındadır, bu ölkənin xarici dövlət borcu 2025-cü ilin birinci yarısında 12,5 milyard dollar olmaqla ÜDM-in 54 faizini təşkil edir. Borcun adambaşına düşən nisbətinə görə də Azərbaycan ən qənaətbəxş vəziyyətə malikdir. Məsələn, Ermənistanda adambaşına düşən borcun həcmi 3,7 min dollar təşkil edir ki, bu da dünyada ən pis göstəricilərdən biridir. Borcun ÜDM-ə nisbətinə görə, Gürcüstanın da borc yükü Azərbaycana nisbətdə xeyli yüksəkdir. Bu ölkənin xarici borcunun ÜDM-ə nisbəti 43 fazidən yuxarıdır. Gürcüstanda adambaşına düşən borcun həcmi 2,8 min dollar təşkil edir. Azərbaycanda isə adambaşına düşən borcun həcmi 495 dollardır. Bütün bu amillər Azərbaycanın öz iqtisadi potensialı sayəsində xarici borcu tam bağlamağa imkan verir.

## Strateji valyuta ehtiyatlarımız xarici borcu 15,6 dəfə üstələyir




Cənubi Qafqaz ölkələrində borcun strateji rezervlərin nisbətinə görə də, Azərbaycan ən yaxşı mövqeyə malikdir. Ölkəmizin strateji valyuta ehtiyatlarının həcmi 78 milyard dollar olmaqla borcu 15,6 dəfə üstələyir.

Azərbaycanın ÜDM-ə nisbətdə aşağı borc səviyyəsi və yüksək strateji valyuta ehtiyatları ölkəmizin tədiyyə qabiliyyəti barədə beynəlxalq maliyyə bazarlarında olduqca müsbət rəy formalaşdırıb. Həmçinin ölkəmizdə ictimai-siyasi, iqtisadi və sosial sabitlik, aydın ifadə olunmuş siyasi iradə və perspektivlər xarici borclar üçün risk səviyyəsini aşağı salır. Belə ki, xarici maliyyə institutları borclarını azaldan ölkələrə növbəti borc paketi ayırarkən daha aşağı faizlə və uzunmüddətli şərtlərlə verir. Çünki, borcu qaytarma imkanları yaxşıdır. Bu baxımdan bu gün Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Asiya İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Səudiyyə Fondu və digər beynəlxalq institutlar Azərbaycana ən sərfəli kreditlər təklif edirlər. Azərbaycan həmin sərfəli təklifləri nəzərə alaraq Böyük Qayıdışın sürətlə icra olunduğu şəraitdə öz iqtisadi məqsədləri üçün səmərəli borclanmaya getməyi də istisna etmir.

## Daxili borc 1,4 milyard manat azalıb

Cari ilin ötən 7 ayı ərzində daxili dövlət borcunun da azalması müşahidə edilib. Belə ki, 2025-ci ilin əvvəli ilə müqayisədə borc məbləği 1,4 milyard manatdan çox azalıb ki, bu da faiz nisbəti ilə 7,9 faiz deməkdir. Daxili dövlət borcunun ÜDM-ə nisbəti isə 1,7 faiz - bəndi azalmaya səbəb olub. Bu borc portfelinin 46,7 faizi dövlət qiymətli kağızlarının, 53,3 faizi isə 2023-cü ilin sonundan etibarən dövlət borcuna aid olan "Aqrarkredit" QSC-nin BOKT dövlət zəmanətli borcunun payına düşür. Borcun strukturunda dövlət qiymətli kağızlarının 12,9 faizi 1 illik, 57 faizi 2 və 3 illik, 30,1 faizi isə 5 il və daha artıq müddətli olanlardır.

2025-ci il sentyabrın 1-nə olan tarixə dövlət şirkətlərinin Azərbaycanın dövlət zəmanəti ilə təmin edilmiş borcları 10 milyard 727,1 milyon manat və ÜDM-in 8,3 faizini təşkil edib. Həmin məbləğin 87,6 faizi xarici valyutada (5526,5 milyon dollar), 12,4 faizi isə milli valyutada (1,3 milyard manat) cəlb edilmiş borclara verilmiş dövlət zəmanətləridir. Dövlət zəmanəti ilə təmin edilmiş borclarının məbləği ötən ilin eyni dövrü ilə müqayisədə 786,7 milyon manat azalıb. Azərbaycan Respublikası adından verilmiş zəmanətlər əsasən dövlət müəssisələri tərəfindən cəlb edilmiş borclardır. Borc strategiyasına əsasən, zəmanətli borclarda mühüm yer tutan istiqamətlər, o cümlədən "Azərbaycan İnvestisiya Holdinqi" və "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi" (AZCON) publik hüquqi şəxslərin idarəetməsinə verilmiş portfel şirkətlərin, o cümlədən dövlət zəmanəti ilə borc cəlb etmiş bir sıra dövlət müəssisələrinin korporativ fəaliyyətinin təmin edilməsi, onların gəlir və xərclərinə nəzarətin gücləndirilməsi və optimallaşdırma tədbirləri sayəsində addımlar atılır ki, bu da borcların geri qaytarılmasında mühüm rol oynayacaq.

***E.CƏFƏRLİ***

# ABŞ və Çin ticarət müharibəsi qlobal iqtisadiyyata necə təsir edir?

**ABŞ və Çin arasında ticarət münasibətlərində gərginliyin yeni dalğası və regional banklardakı problemli kreditlərlə bağlı narahatlıqlar daha çox Amerikanın və dünyanın bir nömrəli tədavül aləti olan dollara təsir göstərməkdədir. Baş verən situasiyalar beynəlxalq birjalarda dollar üzərində təzyiqi bir qədər də artırıb. Oktyabrın 17-də avro və dollar cütlüyü arasında davam edən məzənnə dəyişikliyi bir neçə bənd də yüksələrək bir dolların 1,1715 avro səviyyəsinədək yüksəlməsinə səbəb olub. İngilis funtu isə ABŞ pulu qarşısında yeni dəyər qazanmaqla həftənin əvvəlindəki 1,3389 həddindən 1,3458 həddinə kimi yüksəlib. Dolların zəifləməsi "etibarlı liman" maliyyə aləti adlandırılan qızıla tələbi isə daha da artırıb və dəyərli metal kəskin şəkildə bahalaşmaqdadır. Ötən gün birjalarda qızılın unsiyası 4379 dollar səviyyəsinə qədər yüksələrək mövqeyini bir qədər də möhkəmləndirib. "Bank of America"nın analitikləri 2026-cı il üçün qızıl üzrə proqnozlarını hər unsiyaya görə 5000 dollara qaldırıblar.**

## Dollar ucuzlaşır, FES-in narahatlığı artır

Mövcud vəziyyət ABŞ-da bank icması tərəfindən narahatlıqlarla qarşılanmaqdadır və ölkənin Mərkəzi Bankı funksiyasını icra edən Federal Ehtiyatlar Sisteminin (FES) İdarə Heyətinin üzvü Stiven Miran bildirib ki, ticarət gərginliyi ABŞ iqtisadiyyatında qeyri-müəyyənliyi artırır və iqtisadi artım üçün riskləri gücləndirir. Qeyd edib ki, əgər pul-kredit siyasəti indiki kimi məhdudlaşdırıcı qalarsa və iqtisadiyyata bu cür şok təsir edərsə, həmin təsirin mənfi nəticələri daha da dərinləşəcək.

S.Miran əlavə edib ki, oktyabrın 28-29-da FES-in iclası keçiriləcək və faiz dərəcəsinin 50 baza bəndi azaldılması təşəbbüsü ilə çıxış edəcək, ancaq o, bunun baş verəcəyini az ehti-



mal etdiyini də gizlətməyib.

FES-in İdarə Heyətinin digər üzvü Kristofer Voller isə vurğulayıb ki, ABŞ iqtisadiyyatı ilə bağlı qarışıq siqnalları nəzərə alaraq, faiz dərəcəsinin 50 baza bəndi azaldılmasını dəstəkləmək düzgün olmazdı. Çünki son dəfə sentyabrda uçot dərəcələri 25 baza bəndi azaldılıb, son bir ayda nəzərəçarpacaq iqtisadi canlanma hiss edilmir, hətta əmək bazarında zəifləmə əlamətləri görünür. FES-in sədri Cerom Pauellin Filadelfiyada keçirilən Milli Biznes İqtisadiyyatı Assosiasiyasının (NABE) tədbirində çıxışı zamanı verdiyi mesajlar isə biznes ic-



masında sanki şok yaşadıb. O, əmək bazarındakı vəziyyətin bir qədər pisləşdiyini qeyd edərək biznes fəallığına təsirlərlə bağlı yaxşı proqnozlar verməyib. Buna baxmayaraq, FES rəsmiləri Amerikanın iqtisadi artımının güclü olduğunu etiraf edərək pul-kredit siyasətinin yumşaldıcı dəhlizdə saxlanılmasını vacib sayırlar. Bunlara rəğmən, Mərkəzi Bankın idarəedici strukturları ABŞ-da hökumətin maliyyələşdirmə problemlərinə görə fəaliyyətində dayanmaların olduğunu, "şatdaun"un (durğunluq) davam etdiyini xatırladaraq son dövlətin bank-maliyyə statistikasının dərcinin təxirə salındığını etiraf edirlər. Xeyli müddətdir ki, sənaye sektorunda istehsal həcmi göstəriciləri bazar iştirakçılarına təsdim olunmur ki, bu da səhmdarlar üçün narahatlıqları artırır.

## Amerika bankları mənfəətlərini artırmaqda davam edir

ABŞ və Çin arasında ticarət münasibətlərinin dinamikasını xüsusi diqqətlə izləyən investorlar ölkədə ümumi istehlak xərclərinin azalmasını, qiymətlərin isə artmağa davam etdiyini, hətta bəzi rayonlar üzrə resurs xərclərinin daha sürətli artımının qeydə alındığını nəzərə alaraq sərmayə planlaşdırmasında tərəddüdlər yaşadıqlarını bildirilər. Məsələ ondadır ki, dolların ucuzlaşması, səhm və qızılın, blokçeynlərin bahalaşması ABŞ-ın iri banklarının mənfəətlərini artırmaqdadır. Ölkənin ən iri maliyyə qruplarından biri olan "Citigroup Inc."in səhmləri 3,9 faiz bahalaşıb. Bankın xalis mənfəəti 15,9 faiz, gəlirləri isə 9,3 faiz artaraq proqnozları üstələyib.

"JPMorgan Chase & Co." İsə xalis mənfəətini 12 faiz artırıb. "Goldman Sachs Group"un xalis mənfəəti 39 faiz artıb. Dünyanın idarə olunan aktivlər həcminə görə ən böyük investisiya şirkəti olan "BlackRock"un səhmləri 3,4 faiz dəyər qazanıb, mənfəət və gəlir göstəriciləri isə bazar gözləntilərindən daha yaxşı nəticə göstərib. Belə ki, şirkət 2025-ci ilin üçüncü rübündə gəlirlərini 25 faiz artırmağa nail olub. Banklar mənfəətlə davam etsə də, Amerikada maliyyə şirkətləri gəlir əldə edə bilməyib, ABŞ valyutasının və fond indekslərinin zəifləməsi onlara mənfi təsir göstərib.

## Avrozonada iqtisadi inkişaf indeksi aşağı düşüb

ABŞ-da baş verən iqtisadi proseslər dünya iqtisadiyyatının digər coğrafiyalarını da təsir altına almaqdadır. Bir neçə gün əvvəl açıqlanan məlumatlara əsasən, Avrozonada sənaye sektorunda istehsal həcmi əvvəlki aya nisbətən 1,2 faiz azalıb. Yaponiya da eyni göstərici 1,5 faiz geriləyib. Avropa İqtisadi Tədqiqatlar Mərkəzinin prezidenti Axim Vambax bildirib ki, qlobal qeyri-müəyyənliyin davam etməsi investorların dövlət investisiya proqramının həyata keçirilməsinə dəstək verməsini çətinləşdirir. Oktyabr ayının birinci yarısında Avrozonada metal emalı, əczaçılıq və maşınqayırma sənayelərində vəziyyət yaxşılaşsa da, avtomobil və qida sənayesində göstəricilər pisləşib. Avrozona üzrə İqtisadi İnkişaf Proqnozu İndeksi (İİPİ oktyabrda 3,4 bənd azalaraq 22,7 bəndə enib. Vambaxın fikrincə, maliyyə bazarı ekspertləri cari vəziyyətdəki dinamikanın enəcəyini, yalnız ortamüddətli dövrdə iqtisadi canlanmanın baş verəcəyini proqnozlaşdırırlar.

***ELBRUS***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir


**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






## ŞƏNBƏ ÜÇÜN NƏZM

# ATA QƏBRİ

### Proloq

Artır məzarların sayı anbaan,
Əbədi yuxuya dalır adamlar.
Çatıb qəbristana dayanır zaman,
Orda cavabsızdır bütün suallar.

Günəş də, ulduz da vədəsiz batır
Könül “vaxtsız”ların dərdini duyur.
Hər qarış torpaqda bir nənə yatır,
İldırım baxışla baba uyuyur.

İnsan yana-yana torpağı qazıb,
Yanaqlar bələnib göz yaşlarına.
Ellərin tarixi, yaşı yazılıb
Qədim məzarların başdaşlarına.

Gəzirəm-qəlbimdə alovlar, odlar,
Tanışlar-bilişlər boylanır yerdən,
Könlümdə, gözümdə ünvanlar, adlar -
İnsanlar önündə baş əyirəm mən!

Gəzirəm bir dərdli cavan məzarı,
Qəlbimdə həyəcan, qəlbimdə ələm.
Yoxsa onu yuyub bahar suları,
Mən onu bir daha görən deyiləm?

Hardadır qəlbimin doğma
fəryadı?
O, çiçək mövsümü, üfüq yazıydı.
Həyatı, ünvanı, məkanı, adı
Torpağa şimşəklə yazılasıydı!

Bəlkə kimsəsizlər küləkləriylə
Mavi səmalara uçub gedib o?!
Qəlbimin susmayan diləkləriylə
Göyləri özünə məzar edib o?

Söykənib vüqarlı uca çinara -
Dinləyirəm onun ürək səsini.
Sonra köçürürəm ağ varaqlara
Bu cavan çinarın hekayəsini:

Qəlbində müqəddəs, sönməz arzular...
“Oğlum məni hər an anacaq” - dedi.
“Bundan da qiymətli xəzinəmi var?”
Daxmamın çırağı yanacaq” - dedi.
- Ay bala, məktəbin qurtarhaqurtar...
Buradək çatmaqda hər dərdi-sərim.
Deyirlər, Bakıda nişanlın da var.
Sizsiniz yeganə həyat əsərim...

Gedirəm... Qəlbimdə qalıb min arzum,
Onları sən kama yetirəcəksən.
Ey sabahkı nəvəm, gülüzlü balam,
Qəbrimdə gül-çiçək bitirəcəksən!...

...Ulduzum saralır, ömrüm solur, bax!
Nadir, mənə gəlsin hər qəza-qadan...
Bəli, madam oğlu kama çatanda
Ata vaxt-vədəsiz köçdü dünyadan...

Ata çiyinlərdə məzara getdi,
Qonum-qonşu tökdü acı göz yaşı.
Nadir üç gün onu ziyarət etdi,
Dedi: düzəldərəm gözəl başdaşı.

İndisə Bakıya tez getməliyəm -
Diplom yazıram...
Elm üçün təptəzə yol açacağam.
Kəndi müvəqqəti tərk etməliyəm,
Atamın qırxında qayıdacağam...

Qış ötdü, baharın dağ seli gəldi -
oğul gəlmədi.
Ata ölümünün bir ili gəldi -
oğul gəlmədi.
Dünya milyon-milyon övlad yetirdi,
Biri ana, biri ata itirdi -
oğul gəlmədi
Hər payız dağlara çisək-çən düşdü,
Qap qara saçlara vaxtlı dən düşdü
oğul gəlmədi...
Qonum-qonşu dedi:
-Belə şey olar?
Yəqin ki, gədənin başında iş var...

Bakıdan kim gəldi, dedi ki, bilsən,
Onun barəsində çox eşitdim mən:
Qəzetdə, jurnalda çıxır yazısı, adı-imzası...
O, elm aləminin böyük varıdır,
Bizim dağların da iftixarıdır...

- Bir qarı dilləndi:
Gümrah oğlandı,
Yəqin rəng-rufu da artıq solubdur.
Şan-şöhrət həvəsi, alimlik adı
Bizim cavanlara bəla olubdur.
...Get-gedə azaldı bu söz, bu söhbət
Heç kəs Misgərlini xəbər almadı.
Misgərli günbəgün böyüdü, fəqət
Öz doğma kəndində adı qalmadı.

Onun diplom işi gəzdi əllərdə,
Ağsaçlı bir alim rəy yazdı ona.
Nadirin hünəri, adı dillərdə:
- “Namizədlik adı çox azdır ona”.

Nadirin üzünə güldü səhərlər,
Ata itirməsi son şəri oldu.
Ayağı altında qaldı şəhərlər,
Hər səfər onun bir əsəri oldu.

Bu böyük alimlə görüşmək üçün
Artdı sifarişlər, çoxaldı səylər.
Onun şöhrətindən danışdı hər gün
Qəzetdə, jurnalda yazılan rəylər.

Yaşadı narahat okean kimi,
Uzun yolların da qısası oldu.
Əcnəbi dillərdə kitab sahibi,
Həm də oğul-uşaq atası oldu.

Akademik adı aldı bir gecə,
Atası röyada təbrikə gəldi:
- Bilirsən, ay bala, sevindim necə?..
... Oğluna lap yekə stol dilədi.

- Ürəyim səninçün bir zərif teldir,
Qəbrini görmürəm iyirmi ildir...
Danış, atacan!

Ata dinmədi,
Oğlundan bir kəlmə gileylənmədi.
Getdi. Qeybə çıxdı.
Əridi səsi.
(Onu röya verdi, röya itirdi...)
...Ata məzarını görmək həvəsi
Nadirə olmazın kədər gətirdi.

Səhər “Volqa”sına oturdu Nadir,
Yazın da əvvəli... bülbüllər ötür...
- Ay Vəli, tələsmə, asta sür görək,
Bu yerlər cənnətdir, ziyarət edək.
Yaman yorulmuşam özüm də bu yaz,
Barı havamızı dəyişək bir az.

Yadımdan çıxmayıb Qartallı kəndi,
Dibsiz dərələrdə yeltək əsmişəm.
Uşaqlıq, hardasan? Yaş ötdü... İndi
Bu doğma yerlərçün qəribsəmişəm...

İllərin həsrəti qəlbimi dəlir,
Bu da Qartallıdağ, dumandı varı.
O kiçik daxmamız yadıma gəlir,
Görən qonum-qonşu durumu barı?!

Yamanca kövrəlir adam, ay Vəli,
Yaş qırx, əlliyə çatandan sonra.
Başqaymış sən demə ata nisgili,
Duydum onu ata olandan sonra.

Sür gedək birbaşa qəbristanlığa,
Ürəyim nədənsə olmayır aram.
Atam yerin yeddi qatında olsa,
Torpağın bağrını qazıb taparam.

Şofer heyrətlənir... Neyləsin axı,
Düşünür: görəsən bu necə işdi?
Dünən akademik olan “ağası”
Bu gün birdən-birə dəyişilmişdi...

Budur qəbristanlıq - kəndin kənarı,
Görən neçə insan uyuyur burda?
Yerin gül nəfəsi, göylərin qarı
Yenə zaman-zaman uyuyur burda.

Canlı tarixçədir hər qəbir daşı,
Hər qarış torpaqda insan donubdur...
İki gənc sevgili, ürək yoldaşı
Bir qoşa qəbirdə dəfn olunubdur...

...Gəzdi ürəyində dərdlər, ağrılar,
Yerdən atasını soraqladı o.
Cavabsız qaldıqca sözsüz sorğular
Daşları kitabtək varaqladı o.

Gəzdi qəbristanı o, qədəm-qədəm,
Dedi: “bumu mənim şərəfim, adım?
Ayıbdır, deyərlər - böyük alimsən,
Atanın qəbrini gəzdin, tapmadın...

Bu dərdi görəsən mən kimə deyim?
Dünyanın qəribə sirləri varmış:
Şöhrəti aləmi tutan alimin
Atasının qəbri itib-batarmış!..”

(O, ötən günləri düşündü, andı,
Gözünün nurumu burada söndü?
Dizləri sızlardı, ürəyi yandı,
Özü də bir məzar daşına döndü).

Gəldi qulağına bir insan səsi:
- Ay oğul, oturma belə, tərlisən.
Görürsən, soyuqdur dağlar nəfəsi,
Bura Qartallıdır, sən şəhərlisən...

(Başının üstündə durmuş bir qoca,
Onda dağ qüruru, əzəməti var.
Boyu ərşə qalxan çınardan uca,
Gözləri işıqlı, saçlarısa qar...)

Nadir ona baxdı, kirimişcə, lal:
“Zaman niyə mənim qəddimi əydi?”.
Suallar dalınca yağdı min sual:
- Ay bala, nə olub, dərdini söylə,
Bəlkə mənim də bir köməyim dəydi!

Qartallı olsa da yurdum, məskənim,
Bütün dünya mənim sorağım olub.
Bu kənd ömür yolum, öz yolum mənim,
Həm də yazılmamış varağım olub.

Yaza bilməmişəm, düzü, mən hələ,
Sözüm gah aranda, gah dağda qalıb.
Həştad da yaşadım, bilmirəm niyə
Gözüm min qayada, bulaqda qalıb?

Qoca danışdıqca susur təbiət...
“Bəlkə mənim də bir köməyim çatdı”.
Alim dilə gəldi, dindi nəhayət,
Yalana ilk dəfə belə əl atdı:

- Uzaqdan gəlmişəm, arxeoloqam...
Sizin qəbristandan tarix yazıram.
- Ay oğul, nə gözəl qədəmdir bilsən,
Bax, sənə köməyə hər vaxt hazıram.

Qəbirlər bərbəzəkli,
Qəbirlər ünvanlıdır.
Başdaşında hər kəsin
Var öz adı, famili-
Qəbirlər də adlıdır!

Bu gözəl adətdir, gəl, inan mənə,
Hər itən bir məzar qanlı yaramdır.
Daşlarda yazılan kiçik salnamə
İnsana əbədi bir ehtiramdır.

Qocayam, yol üstə min niyyətim var,
Arzular ürəkdə heç vaxt bitməsin.
Övladlar, sizə bir vəsiyyətim var:
Bir ata, bir ana qəbri itməsin.

Bu üççə cümləlik salnamələri
Poza bilməmişdir min boran, ayaz.
Onlar yaşayırlar, oğul, ay oğul,
Gəl sən itib-batmış qəbirlərdən yaz.

...Bir dostum var idi Müqəddəs adlı -
Davadan tək qolla geri qayıtdı,
Gözləri səmavi, boylu-busatlı...
Eşqini ellərin eşqinə qatdı...

Mən də cəbhədəyəm. Dava qurtardı,
Bir vaxt bu dağlara baxdım çox gendən.



**HİDAYƏT**

Bəli, zabit idim, ulduzum vardı...
Elə ki, qocaldım, kəndə gəldim mən!

Dostum tez köçmüşdü dünyadan, çox tez,
Bir vaxt gecələr də yata bilmədim.
Bu böyük bir dərddir -
Başa düşün siz,
Dostumun qəbrini tapa bilmədim...

Əzəldən vurğundum Qartallı yurda,
Eh, niyə gül-çiçək ömrükəm solsun?
Bir çinar tingi də basdırdım burda,
Dedim, o dostuma xatirə olsun.

Bir oğlu var idi... İndi deyəsən
Alimdir, dünyada adı-sanı var.
Belə uşaqlarda, ay oğul, də sən,
Görən neçə çiltə övlad qanı var?

Nə çoxdur bax belə övladlar hələ
Ellərə qaynayıb-qarışmayıblar.
Onlara alimlik veriləndə də
İnsanlıqdan bir söz soruşmayıblar.

- Bəsdir, əmi, bəsdir, yetər bu söhbət,
Ürəyim ağrıyır...
(Taleyə bax bir...
Dosta oğuldan çox vəfa, sədaqət...
İnşa məhəbbəti ölən deyildir).

Misgərli “Volqa”ya yanaşır bu an,
- Ay oğul, belə tez hara? Ayıbdır.
Bu yurda kim gəlib, ay bala, inan
Duz-çörək kəsməmiş qayıtmayıbdır...

Qocaya son dəfə sataşır gözü,
Misgərli özünü maşına salır.
Demək istədiyi “sağ olun” sözü
Dolaşıb dilinin ucunda qalır.

Şoferə “tezcə sür” əmrini verir,
Hıçqırıq kükrəyir onun səsində.
Elə bil dünyada tənhadır Nadir,
Alov var qanının hər qətrəsində:

“Bütün təbiətmi olubdur nasaz,
Bu nə hay-haraydır çökür yollara?
Yüz əsərli oğlan, indi bunu yaz -
Buludlar göz yaşı tökür yollara...”

*1967.*
***İrəvan.***

# Fədakar əməklə işıqlı gələcəyə...

Energetika istənilən ölkənin iqtisadiyyatında və sosial həyatında mühüm rol oynayan strateji bir sahədir. Sənayenin inkişafı, gündəlik həyatımızın təminatı məhz enerji təchizatından asılıdır. Bu baxımdan, energetiklər - elektrik, qaz və istilik enerjisinin istehsalı, ötürülməsi və paylanması ilə məşğul olan mütəxəssislər cəmiyyətin dayanıqlı inkişafında vacib rol oynayırlar.

Azərbaycanın enerji sektorunun zəngin tarixi var. Ölkəmiz həm neft-qaz, həm də elektrik enerjisi istehsalı sahəsində mühüm nailiyyətlər əldə edib. Oktyabrın 20-si Azərbaycanda Energetiklər Günüdür. 21 ildir ki, Azərbaycan energetikləri öz peşə bayramlarını iftixarla qeyd edirlər. Energetiklər Günü ölkəmizin həyatında xüsusi əhəmiyyət kəsb edən əlamətdar hadisə ilə bağlıdır: 44 il əvvəl, 1981-ci il oktyabrın 20-də “Azərbaycan” istilik elektrik stansiyasının (İES) birinci enerji bloku Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə istifadəyə verilib, bununla da Azərbaycan elektroenergetikasının inkişafında yeni mərhələnin əsası qoyulub.

Prezident İlham Əliyevin 2004-cü il 13 oktyabr tarixli sərəncamı ilə həmin tarixin ölkəmizdə Energetiklər Günü kimi təsis edilməsi milli elektroenergetika salnaməmizin daha bir parlaq səhifəsi, ölkə rəhbərliyinin bu sahədə çalışan insanların fədakar əməyinə verdiyi böyük dəyərin ifadəsidir.

## Enerji təhlükəsizliyimiz 100 faiz təmin edilib




Ümummilli Lider Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə respublikamızın energetika kompleksinin, o cümlədən elektrik enerjisi sisteminin inkişafına xüsusi diqqət yetirib, bu sahədə misilsiz işlər görüb. Ulu Öndərin müəyyənləşdirdiyi və hazırda Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən sosial-iqtisadi islahatlar Azərbaycanın güclənməsinə və qüdrətlənməsinə yönəlib. Dövlətimizin başçısının təşəbbüsü və rəhbərliyi ilə iqtisadiyyatın bütün sahələri, o cümlədən elektroenergetika üzrə də mükəmməl proqramlar qəbul edilərək reallaşdırılıb. “Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi”nin Tədbirlər Planına uyğun olaraq, hazırda yaxın və uzaq perspektivdə nəzərdə tutulmuş vəzifələrin icrası ilə bağlı müvafiq işlər görülür. Eyni zamanda, enerji sisteminin müasirləşdirilməsi nəzərdən keçirilir.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən enerji siyasəti sovet dövründə və müstəqillik illərində bu sahədə görülmüş işləri, əldə edilmiş nəticələri nəinki məntiqi cəhətdən tamamlayır, eyni zamanda, elektroenergetika sisteminin müasir qlobal trendlərə uyğun inkişafını təmin edir. Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, öz potensialı hesabına enerji təhlükəsizliyinin təminatına 100 faiz nail ola bilib.

## 2030-cu ilədək...

Bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi, energetika sisteminin səmərəliliyinin artırılması və mərhələli şəkildə liberal bazar modelinə keçilməsi Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan islahatlar prosesinin hədəfləridir. Dövlət başçısının “Energetika sektorunda islahatların sürətləndirilməsi haqqında” 2019-cu il 29 may tarixli, “Bərpaolunan enerji mənbələrindən istifadə sahəsində pilot layihələrin həyata keçirilməsi tədbirləri haqqında”, 2019-cu il 5 dekabr tarixli sərəncamları, eləcə də 2020-ci il 22 sentyabr tarixli fərmanı ilə Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin yaradılması energetika sektorunda əsaslı dəyişikliklərə yüksək səviyyədə təminat verilir. Bu gün əsas məqsəd Azərbaycan Prezidenti tərəfindən qarşıya qoyulmuş vəzifələrə uyğun olaraq, 2030-cu ilə qədər bərpaolunan enerji mənbələri hesabına 1500 meqavat əlavə güc yaratmaqla elektrik enerjisinin qoyuluş gücündə bərpaolunan enerjinin payını 30 faizə çatdırmaqdır.

***Yeganə BAYRAMOVA***

# “Nar” “Çoox Şanslı” lotereyasına start verdi

Sərfəli mobil operator “Nar” ilsonunda abunəçilərinə sevinc bəxş etmək üçün onları möhtəşəm hədiyyələrlə dolu “Çoox Şanslı” lotereyasına qoşulmağa dəvət edir. 31 dekabra qədər davam edəcək bu xüsusi lotereya çərçivəsində “Nar” istifadəçiləri hər gün “Xiaomi Redmi Note 14 Pro” smartfonu, hər həftə “Haval H6 Ultra” avtomobili və finalda isə “Li L9 Ultra” avtomobilini qazanmaq imkanı əldə edəcəklər.




Lotereyada iştirak etmək çox sadədir - sadəcə balansınızı artırın və ya şans qazandıran “Dəqiqə+” paketlərindən birini aktivləşdirin. Hər balans artımı və ya əlavə şans qazandıran “Dəqiqə+” paketi sizə daha çox qalib olmaq şansı gətirəcək. 1 AZN-dən yuxarı artırılan balans avtomatik olaraq lotereyada iştirak hüququ verir: 1-3.99 AZN arası artırmalarda hər 1 AZN = 1 şans, 4 AZN və daha çox artırmalarda isə hər 1 AZN = 2 şans deməkdir.

Abunəçilər topladıqları şansların sayını və iştirak statuslarını “Nar+” tətbiqi və nar.az veb səhifəsindəki xüsusi lotereya bölməsindən rahatlıqla izləyə bilər.

Qeyd edək ki, “Çoox Şanslı” lotereyasının qalibləri təsadüfi seçimlə müəyyən ediləcək və hədiyyələr canlı yayımda elan olunacaq.

Daha ətraflı məlumat üçün: nar.az/lotereya

Hazırda 2,2 milyon abunəçiyə xidmət göstərən “Nar” son 6 il ərzində Müştəri Loyallığı İndeksi göstəricisinə əsasən Azərbaycanda lider mobil operatordur. Bu uğurun arxasında “Nar”ın ardıcıl şəkildə həyata keçirdiyi müştəriyönümlü strategiya dayanır. Mobil operator istifadəçilərinə sərfəli qiymət qarşılığında dayanıqlı və yüksəkkeyfiyyətli rabitə xidmətləri, müxtəlif internet paketləri və müasir eSim texnologiyası təqdim edir.


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4994
Sifariş: 2109
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova